MƏRKƏZİ ASİYA İLƏ əməkdaşlıqda yeni format

Bu gün Azərbaycanın xarici siyasətində Türk dünyası, həmçinin Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığın özünəməxsus yeri var. Prezident İlham Əliyevin Düşənbədə Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə fəxri qonaq qismində iştirakı bu münasibətlərə yeni təkan verəcək.

Məşvərət görüşündə çıxış edən Prezident İlham Əliyev bildirib ki, Azərbaycanı və Mərkəzi Asiya ölkələrini xalqlarımızın çoxəsrlik qardaşlıq münasibətləri bağlayır.

Dövlət başçısının sözlərinə görə, keçən il Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə ticarət dövriyyəsi 3 dəfədən çox, bu ilin 7 ayı ərzində isə daha 50 faiz artıb.

SƏHİFƏ 2-də

UĞURLARIMIZA AÇAR OLAN "ƏSRİN MÜQAVİLƏSİ"

"Əsrin müqaviləsi"nin ölkəmizin qarşısında açdığı geniş imkanlar nəticəsində Bakı hədəflərinə doğru inamla irəliləyir. Bu gün Azərbaycan ardıcıl olaraq mühüm beynəlxalq layihələrə imza atır.

SƏHİFƏ 4-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

ÜÇ ƏSRİN QƏZETİ

Kaspi

16 SENTYABR ŞƏNBƏ 2023 | 34 (4136) Qiyməti - 40 qəpik www.kaspi.az

AĞDAM-XANKƏNDİ YOLUNDAN SONRA...

İstər antiterror əməliyyatları, istər Qarabağ İqtisadi Rayonundakı və Şərqi Zəngəzurdakı bərpa-quruculuq işləri, Laçında sərhəd postunun qurulması Ermənistan və erməni separatçıların boğazına keçirilən ip oldu. Ağdam-Xankəndi yolunun açılması isə bu istiqamətdə yeni proseslərin başlanğıcıdır.

SƏHİFƏ 3-də

HEYDƏR ƏLİYEV FONDU BU İL DƏ MƏKTƏBLİLƏRİ SEVİNDİRDİ

YENİ TƏDRİS İLİNƏ MÖHTƏŞƏM HƏDİYYƏ

Heydər Əliyev Fondunun təhsil sahəsində həyata keçirdiyi layihələr çərçivəsində 2004-cü ildən etibarən 500 məktəb inşa və təmir olunaraq istifadəyə verilib. Fond bu il də ölkəmizin müxtəlif şəhər və rayonlarında yeni tədris ocaqlarının inşa olunması ənənəsinə sadiq qalıb. Bu il istifadəyə verilən təhsil müəssisələrinin sayı 22-dir.

500-CÜ MƏKTƏB İSTİFADƏYƏ VERİLDİ

Bu il Bilik Günündə Fondun 500-cü məktəbi Şamaxı rayonunun Göylər kəndində şagird və müəllimlərin ixtiyarına verilib. Prezidentin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov burada şagirdlər və valideynlərlə görüşüb, Prezident İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın salamlarını çatdırıb.

TƏHSİL SAHƏSİNƏ XÜSUSİ DİQQƏT

Yarandığı gündən təhsil sahəsinə xüsusi həssaslıqla yanaşan, bu sahənin inkişafını fəaliyyətinin prioritet istiqaməti elan edən Heydər Əliyev Fondu "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" kimi proqramların icrası ilə təhsil sahəsinə öz dəstəyini göstərir, tədrisin keyfiyyətini yüksəltmək məqsədi ilə təhsil müəssisələri əyani vəsaitlərlə təmin olunur.

SƏHİFƏ 7-də

MƏHƏBBƏTİ ƏFSANƏYƏ ÇEVİRƏN BƏSTƏKAR

Arif Məlikov tək simfonik əsər yazmayıb. Onun üç baleti var, 40-a yaxın filmə, tamaşalara musiqi yazıb. 27 cilddən ibarət külliyyatı Prezidentin sərəncamı ilə çap olunub. Onun "Məhəbbət əfsanəsi" baleti dünya səhnələrini dolaşıb.

SƏHİFƏ 15-də

FRANSA MÜSTƏMLƏKƏÇİLİYİNİN İFLASI

Makronun dövlət başçısı olduğu müddətdə anti-fransız əhval-ruhiyyə pik həddə çatıb. Bir neçə il əvvəl Malidə və Burkino-Fasoda hakimiyyəti ələ keçirən hərbçilər Fransa ilə əlaqələri minimuma endiriblər. Hətta bu ölkələrdə Fransa televiziya kanallarının yayımı qadağan edilib.

SƏHİFƏ 6-da

191 RƏDD CAVABI ALSA DA, MƏQSƏDİNƏ NAİL OLDU

"Müəllim müdir yox, LİDER OLMALIDIR"

Niderlandda müəllim işləyən azərbaycanlı Rasim Mollayev: "Dərs keçən vaxt özümü konsertdə müğənni kimi hiss edirəm. Təsəvvür edin, sinifdə qarşında ən az 20 nəfər tələbə səni dinləyir və çıxış edirsən".

Əzmkarlığı, iddiası, özgüvəni onu daim irəli aparıb. İşə qəbul üçün göndərdiyi elanlardan 191 dəfə rədd cavabı alsa da, yolundan dönməyib. Nəhayət, tələbə vaxtı qarşısına qoyduğu məqsədinə çatıb və karyerasını arzuladığı mühitdə davam etdirib. 191 dəfə rədd cavabı aldığı ölkədə rəhbər vəzifəyə qədər yüksəlib.

SƏHİFƏ 8-9-da

METRODA GÜZƏŞTLƏR TƏTBİQ EDİLƏCƏK?

Metrodan istifadə edən paytaxt sakinlərinin sayı hər il artmaqdadır. Bu artımla yanaşı, metropoliten sistemində müxtəlif yeniliklər də tətbiq olunur. Bu yeniliklərdən razı qalanlar da var, narazı olanlar da.

SƏHİFƏ 11-də

Bu il balıq bol olacaq

Səhifə 10-da

Ermənistanda vektor dəyişikliyi

Səhifə 5-də

Kompüter var, bəs müəllim?

Səhifə 13-də

Güləşçilərimiz yeni sınaq qarşısında

Səhifə 16-da

"SOCAR" KÖNÜLLÜLƏR" QRUPUNUN İLK MƏZUNLARI

"SOCAR Könüllülər" qrupunun ilk məzunlarına sertifikatlar təqdim edilib. Onlarla keçirilən görüşdə bildirilib ki, ölkəmizdə mövcud könüllülük hərəkatı gənclərin cəmiyyətin bütün sahələrində fəal iştirakına, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasına imkan yaradır.

Azərbaycan Dövlət Neft Şirkətinin "SOCAR Könüllülər" qrupunun ilk məzunları ilə görüş keçirilib. "Report" xəbər verir ki, "SOCAR Tower"da keçirilən görüşdə "SOCAR Könüllülər" qrupunun ilk məzunlarını salamlayan SOCAR-ın kommunikasiya məsələləri üzrə icraçı direktoru Aygün Hüseynova Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə başladılan könüllülük hərəkatının dövlətimizin həyata keçirdiyi gənclər siyasətinin mühüm istiqamətlərindən biri olduğunu bildirib.

KÖNÜLLÜLÜK FƏALİYYƏTİNİN ƏHƏMİYYƏTİ

İcraçı direktor könüllülük fəaliyyətinin gənclərin müxtəlif sahələr üzrə təcrübə qazanması və mühüm biliklərə yiyələnməsi baxımından əhəmiyyətini qeyd edərək bu hərəkatın bir parçası olan "SOCAR Könüllülər" qrupunun ilk məzunlarını təbrik edib, onlara fəaliyyətlərində müvəfəqiyyətlər diləyib.

A.Hüseynova 2022-ci ilin sentyabrında SOCAR Media İctimai Birliyinin nəzdində yaradılan könüllülər qrupunun ötən bir il ərzində səmərəli fəaliyyət göstərdiyini, şirkət tərəfindən həyata keçirilən tədbirlərdə yaxından iştirak edərək mühüm təcrübə qazandıqlarını bildirib.

İnsan kapitalının inkişafı baxımından könüllülər hərəkatının əhəmiyyətindən bəhs edən SOCAR-ın vitse-prezidenti Ziba Mustafayeva ölkəmizdə mövcud könüllülük hərəkatının gənclərin cəmiyyətin bütün sahələrində fəal iştirakına, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasına imkan yaratdığını vurğulayıb.

MƏZUNLARA SERTİFİKATLAR TƏQDİM EDİLİB

Vitse-prezident könüllülərin bilik və bacarıqlarının təkmilləşdirilməsi üçün SOCAR-da əlverişli şəraitin yaradıldığını qeyd edib. SOCAR könüllülərinin ölkəmizdə könüllülük hərəkatının genişlənməsinə töhfə verdiyini ifadə edən Z.Mustafayeva "SOCAR Könüllülər" qrupunun ötən bir il ərzindəki çoxşaxəli fəaliyyətini yüksək qiymətləndirib və onlara gələcək işlərində uğurlar diləyib.

Tədbirdə çıxış edən "SOCAR Könüllülər"i üzrə SOCAR-ın səlahiyyətli nümayəndəsi Ruqiyyə Musayeva məzun olan könüllülərə tədbirlərdə yaxından iştiraklarına, il ərzində aktiv fəaliyyətə görə təşəkkür edib.

Sonra "SOCAR Könüllülər"in qrup rəhbəri Murad Əliyev qrupun ötən bir il ərzindəki fəaliyyəti haqqında ətraflı məlumat verib. Sonda Könüllülər qrupunun məzunlarına sertifikatlar təqdim edilib, xatirə fotosu çəkilib.

MƏRKƏZİ ASİYA İLƏ ƏMƏKDAŞLIQDA YENİ FORMAT

Bu gün Azərbaycanın xarici siyasətində Türk dünyası, həmçinin Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığın özünəməxsus yeri var. Prezident İlham Əliyevin Düşənbədə Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə fəxri qonaq qismində iştirakı bu münasibətlərə yeni təkan verəcək.

Düşənbədə Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşü keçirilib. Prezident İlham Əliyev görüşdə fəxri qonaq qismində iştirak edib. Azərbaycanın bu toplantıda iştirakını yüksək qiymətləndirən dövlət başçıları ölkəmizlə əməkdaşlığın bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcəyinə əminliklərini bildiriblər.

ÇOXƏSRLİK QARDAŞLIQ MÜNASİBƏTLƏRİ

Məşvərət görüşündə çıxış edən Prezident İlham Əliyev bildirib ki, Azərbaycanı və Mərkəzi Asiya ölkələrini xalqlarımızın çoxəsrlik qardaşlıq münasibətləri bağlayır. Ortaq mədəni köklər dövlətlərarası əlaqələrin möhkəm bünövrəsini təşkil edir: "Otuz ildən artıqdır ki, biz müstəqil dövlətlər kimi həm ikitərəfli, həm çoxtərəfli formatda fəal şəkildə qarşılıqlı fəaliyyət aparırıq, bir-birimizin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirik, iqtisadi əlaqələri fəal şəkildə inkişaf etdiririk.

Mərkəzi Asiya və Azərbaycan artan iqtisadiyyatı, demoqrafiyası və geosiyasi potensialı ilə dünya siyasətində strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur".

TİCARƏT DÖVRİYYƏSİ ÜÇ DƏFƏ BÖYÜYÜB

Dövlət başçısının sözlərinə görə, ikitərəfli əməkdaşlığın mühüm meyarlarından biri qarşılıqlı ticarətin və sərmayələrin artımıdır. Sevindirici haldır ki, həmin iki istiqamət üzrə göstəricilər davamlı artıma malikdir. Keçən il Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə ticarət dövriyyəsi 3 dəfədən çox, bu ilin 7 ayı ərzində isə daha 50 faiz artıb: "Birgə sərmayə fondları yaradılıb, növbəti 3 il üzrə 1 milyard dollardan artıq qarşılıqlı sərmayələrin həcmi razılaşdırılıb. Biz artıq sənaye əməkdaşlığı, maşınqayırma, avtomobil sənayesi, gəmiqayırma, kənd təsərrüfatı, xüsusən də pambıqçılıq, ipəkçilik, bağçılıq və heyvandarlıq sahələrində çoxsaylı layihələri həyata keçiririk. Mehmanxana işi və turizm sahəsindəki sərmayə layihələri ilk icra mərhələsindədir. Biz Mərkəzi Asiyadan olan şirkətlərin bu yaxınlarda Azərbaycanda yaradılmış Ələt Azad İqtisadi Zonasına marağını görürük".

Prezident bildirib ki, nəqliyyat və logistika sahəsi də münasibətlərimizdə mühüm yer tutur. Azərbaycan Mərkəzi Asiya ölkələri üçün Türkiyə və Avropa bazarları istiqamətində etibarlı tranzit ölkəsidir: "Şərq-Qərb marşrutu ilə yükdaşımalarına artan tələbatı təmin etmək məqsədilə Bakı-Tbilisi-Qars dəmir yolu tərəfimizdən müasirləşdirilir. Gələn il həmin yol ilə daşınan yüklərin həcmi 1 milyon tondan 5 milyon tona qədər artırılacaq. Buna paralel olaraq, Bakı Ticarət Limanının imkanları bugünkü 15 milyon tondan 25 milyon tona qədər artırılır".

ÖLKƏMİZİN DÜNYADA NÜFUZU ARTIR

Qeyd edək ki, bu gün Azərbaycanın xarici siyasətində Türk dünyası, həmçinin Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığın özünəməxsus yeri var.

Milli Məclisin deputatı Rəşad Mahmudov da AZƏRTAC-a bildirib ki, əslində Mərkəzi Asiya ölkələri ilə münasibətlərin qısa zaman kəsiyində inkişafında ciddi tarixi siyasi əsaslar var. Azərbaycanla Mərkəzi Asiya ölkələrini çoxəsrlik qardaşlıq münasibətləri, ortaq mədəni köklər, keçmiş sovetlər dönəmində iqtisadi əlaqələr dövlətlərarası münasibətlərin möhkəm bünövrəsini təşkil edir ki, bu da bugünkü əməkdaşlığa böyük töhfə verir.

Deputat bildirib ki, müasir dünya siyasi düzəni iqtisadi maraqlar üzərində tənzimlənir və Avrasiya qitəsində bütün logistik layihələrdə Azərbaycan və Mərkəzi Asiya mühüm strateji əhəmiyyət kəsb edir. Bu isə Avrasiya məkanında bütün iqtisadi layihələrdə Azərbaycanın əvəzolunmaz ölkə olduğunu təsdiq edir. Prezident İlham Əliyevin yürütdüyü xarici iqtisadi siyasət kursu Azərbaycanın tək regionda deyil, bütövlükdə dünyanın iqtisadi-siyasi çapında ölkəmizin nüfuzunun artırmış olur.

AĞDAM-XANKƏNDİ YOLUNDAN SONRA...

İstər antiterror əməliyyatları, istər Qarabağ İqtisadi Rayonundakı və Şərqi Zəngəzurdakı bərpa-quruculuq işləri, iqtisadi layihələr, Laçında sərhəd postunun qurulması həm Ermənistanın, həm də erməni separatçıların boğazına keçirilən ip oldu.

AQŞİN KƏRİMOV

Rusiya Qızıl Xaç Komitəsinin Ağdam-Xankəndi yolu ilə Qarabağda yaşayan ermənilərə yük çatdırması Azərbaycan üçün əhəmiyyətli irəliləyişdir. Çünki rəsmi Bakı Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində suveren hüquqlarını bərpa etməyə bir addım da yaxınlaşdı.

SEPARATÇILARIN BOĞAZINA KEÇİRİLƏN İP

2020-ci ilin 10 Noyabr Bəyanatı imzalanandan sonra Azərbaycan tədrici şəkildə məqsədlərini reallaşdırdı.

Burada statistika sadalamaq yox, Azərbaycanın ali məramının mahiyyətini önə çıxarmaqla prosesləri dərk etmək vacibdir. Azərbaycan Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti xidmət zonasındakı fəaliyyətini elə şəkildə qurdu ki, təbii şəkildə suverenlik hüququ bərpa olunsun. İstər antiterror əməliyyatları, istər Qarabağ İqtisadi Rayonundakı və Şərqi Zəngəzurdakı bərpa-quruculuq işləri, iqtisadi layihələr, Laçında sərhəd postunun qurulması həm Ermənistanın, həm də erməni separatçıların boğazına keçirilən ip oldu. Geniş strateji kontekstdə Azərbaycan Qarabağdakı hadisələrlə Ermənistanla sərhəddəki prosesləri regionda özünün maraqlarının təmini şəklində əlaqəli şəkildə inkişaf etdirdi və yaranan reallıqları danışıqların predmetinə gətirdi.

QARABAĞ ERMƏNİLƏRİ ÜÇÜN YEGANƏ NİCAT

Ağdam-Xankəndi yolunun Qarabağ erməniləri üçün yeganə nicat olması prinsipinin formalaşdırılması əldə olunan razılıqların və Azərbaycanın Ermənistan üzərində diktələrinin məntiqi davamı kimi ortaya çıxır.

Yada salaq ki, Ağdam-Xankəndi marşrutunun açılması barədə razılıq Qərb mərkəzli danışıqların nəticəsində əldə edilmişdi, ancaq Rusiya sonradan prosesləri əlində cəmləşdirmək üçün həmin gündəliyə, necə deyərlər, barmaq etdi.

Rusiya Azərbaycanın maraqlarına yaxın olan manevrlərinin davamını Ağdam-Xankəndi yoluna TIR salmaqla gətirdi, hərçənd ki, regionda Moskvanın imperiya ambisiyalarının sonu gəlməyib.

Yəni Rusiya bunu birbaşa Azərbaycanın strateji yanaşmasının təminedici funksiyası kimi həyata keçirmədi, Moskvanın manevri Qərbin regiondakı təsir zəncirlərini qırmağa yönəlmişdi.

Düzdür, Kremlin tempi Putinlə Ərdoğanın Soçidə keçirilən görüşündən sonra artdı. Yəni, daha bir Rusiya-Türkiyə yaxınlaşması fonunda İrəvanla Moskva arasındakı körpülər yandırılır. Elə baş nazir Nikol Paşinyan administrasiyasının Qərblə Rusiyaya qarşı oynamaq cəhdləri kifayət edir ki, Rusiyanın əlinə İrəvanı hədəf gətirməyə bəhanələr düşsün. Yeri gəlmişkən, İrəvanla Moskva arasında gərginliyin yüksələn xətlə davam etməsi Ağdam-Xankəndi yolunda cərəyan edən hadisələrin işığında diqqət çəkir. Rusiyanın Ermənistana qulaqburması vermək üçün seçdiyi metod və üsulların praktiki təzahürləri yaxın zamanlarda üzə çıxa bilər, hələlik Moskva bu mövqeyini Qarabağdakı vəziyyət üzərindən vurğulayır.

Ağdam-Xankəndi yolunun Rusiya xətti ilə açılmasından sonra baş verə biləcək mümkün hadisələr Kremlin regionu şəkilləndirmək üçün növbəti cəhdlərinin yeni əlamətləri ilə müşayiət ediləcək.

Zaman kəsiyi vacibdir, Azərbaycan həmin intervalda Rusiya ilə razılaşmaların ruhunu bir neçə istiqamətdə öz xeyrinə inkişaf etdirmək çağırışı ilə üz-üzədir.

AZƏRBAYCAN ÜÇÜN İKİ MƏQAM

Birinci, Azərbaycan Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Qarabağda açıq qalan məsələləri sürətlə həll etməyi bacarmalıdır. Hər açıq qalan məsələnin qapadılması sülhməramlıların regiondakı əməliyyat çərçivələrinin daraldılması deməkdir. Yəni problem yoxdursa, sülhməramlıların da qalmasına ehtiyac yoxdur.

Rusiya bundan fərqli olaraq regional iştirak səviyyəsini Qərbin qarşısında məğlub duruma salmamaq üçün sülhməramlıların Qarabağdakı mandatının uzadılmasında maraqlı tərəf kimi çıxış edə bilər.

İkinci, Azərbaycan Rusiya ilə əlaqələrin mahiyyətini elə şəkildə tərtib etməlidir ki, Qərbin regionla bağlı Bakının xeyrinə olan çalarları zədə almasın. Hər halda, Ağdam-Xankəndi yolunun qeyd olunan səviyyədə açılması Rusiyaya bu imkanı da yaradır ki, o, bundan sonra Azərbaycanla Qarabağ ermənləri arasında təmasların moderatoru olsun.

Rusiya regionda iştirakını 10 Noyabr Bəyanatı ilə möhkəmləndirməkdə çox maraqlıdır. Bununla belə, diqqətə alınmalıdır ki, Rusiya Bəyanatın bəndlərinin icrası üçün Ermənistanın üzərinə ağır yük qoyan çağırışlarını artırır.

Qərbə gəlincə, o, Ağdam-Xankəndi marşrutunun Rusiya Qızıl Xaç Komitəsinin üzünə açılmasından doğan itkiləri bərpa etmək üçün Laçın yolundan humanitar yükləri Qarabağa keçirməyə cəhd edəcək. Bu məsələ sanki Rusiya-Qərb sövdələşməsi üçün də açardır, çünki Qərb dairələrindən Ağdam-Xankəndi yolunun açılması ilə əlaqədar müsbət bəyanatlar eşidilməkdədir. Belə müsbət ton Qərbi Rusiya ilə sövdələşməyə girməyə vadar edən əlamətlərin nişanəsidir.

Ümumi tabloda isə həm Qərb, həm də Rusiya qurduğu planlardan asılı olmayaraq bunu Türkiyədən yan keçirməyə nail olmaqda çətinlik çəkəcək. Buna görə də onlar Ankara ilə danışıqlar aparmaq məcburiyyətini hiss edirlər.

İran da Türkiyənin saldığı kölgəni nəzərə alır, bu səbəbdəndir ki, Ankara-Tehran danışıqlarının nəticəsi olaraq ikinci Azərbaycana qarşı ritorikasını yumşaltmağa can atır. Hər bir halda Ermənistan çətin vəziyyətlə üzləşir, çünki onunla bağlı, daha doğrusu əleyhinə real addımların atılacağı günlər çox uzaqda görünmür. Həmin praktiki hərəkətlərdə hərə özünə bir mövqe seçəcək, məsələn, Azərbaycan üçün sərhədlərin təhlükəsizliyi prioritetdirsə, Rusiyaya, İrana, Qərbə görə məsələ fərqli rəngdədir. Türkiyə Azərbaycanla strateji müttəfiqliyin xarakterindən irəli gələn yanaşmalarla regionda payını artırmağa çalışacaq.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Uğurlarımıza açar olan “Əsrin müqaviləsi”

“Əsrin müqaviləsi”nin ölkəmizin qarşısında açdığı geniş imkanlar nəticəsində Bakı hədəflərinə doğru inamla irəliləyir. Bu gün Azərbaycan ardıcıl olaraq qlobal enerji təhlükəsizliyinin təminə əhəmiyyətli töhfələr verən mühüm beynəlxalq layihələrə imza atır.

AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycanın müstəqil dövlət kimi dayanıqlı və sabit inkişafının təməlini təşkil edən “Əsrin müqaviləsi”nin imzalanmasının 29 ili tamam olur. Ulu öndər Heydər Əliyevin sarsılmaz iradəsi, gərgin əməyi və uzaqgörən siyasəti nəticəsində 1994-cü ilin 20 sentyabrında “Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasilatın pay bölgüsü haqqında Saziş” imzalandı. Dəyəri 7,4 milyard dollar olan “Əsrin müqaviləsi”ndə dünyanın 7 ölkəsini təmsil edən 11 beynəlxalq neft şirkəti iştirak edib. Həmin il, dekabrın 12-də “Əsrin müqaviləsi” Azərbaycan parlamentində ratifikasiya olunub.

“ƏSRİN MÜQAVİLƏSİ” DÜNYAYA SÜBUT ETDİ Kİ...

Müəllifi ümummilli lider olan bu sazişlə Azərbaycanın neft strategiyası və doktrinasının əsası qoyulub. Hansı ki, sonrakı illərdə ölkəmizin iqtisadi inkişafının lokomotivini təşkil edib. “Əsrin müqaviləsi” bütün dünyaya bir daha sübut etdi ki, bundan sonra təbii sərvətlərimizin əsl sahibi Azərbaycan xalqıdır. Bu sərvətlər ölkəmizin suverenliyinin, milli mənafeyinin qorunmasına, iqtisadi və strateji maraqlarımızın təminə xidmət edəcək. Dövlətimizin təhlükəsizliyinin təminində əsas qarantlardan biri olacaq. Zaman keçdikcə bu hədəflər reallaşdı və Azərbaycan dünyanın ən sürətlə inkişaf edən ölkələrindən birinə çevrildi. Bu gün “Əsrin müqaviləsi” dövlət müstəqilliyimizin mühüm təminat vasitələrindən biridir.

Qeyd edək ki, “Əsrin müqaviləsi” həm maliyyə yatırımları, həm də karbohidrogen ehtiyatlarının həcminə görə enerji sektorunda bu zamana qədər imzalanmış ən böyük beynəlxalq layihələr sırasında yer alır.

TARİXİ ZƏFƏRDƏ “ƏSRİN MÜQAVİLƏSİ”NİN PAYI

30 illik işğala son qoyaraq Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası ilə nəticələnən Vətən müharibəsində əldə etdiyimiz tarixi zəfərdə də “Əsrin müqaviləsi” mühüm pay sahibidir desək, yanılmarıq. Neft-qaz ixracından əldə edilən gəlirlər sayəsində müasir ordu quruculuğunun həyata keçirilməsi, beynəlxalq münasibətlər sistemində haqq səsimizin davamlı olaraq eşidilməsi və işğalın aradan qaldırılması istiqamətində beynəlxalq hüquqi baza rolunu oynayan çoxsaylı qətnamələrin, qərarların, bəyanatların qəbulu buna misaldır.

ULU ÖNDƏRİN SÖYLƏDİKLƏRİ REALLIĞA ÇEVRİLİR

“Əsrin müqaviləsi”nin Azərbaycan üçün əhəmiyyətini ulu öndər belə dəyərləndirmişdi: “Əsrin müqaviləsi” ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır”. Həqiqətən də, ümummilli liderin illər öncə dediyi bu fikirlər artıq reallıqdır. Son üç ildə Azərbaycan qalib ölkədir. Artıq “işğal altında qalan torpaqlar” anlayışı yoxdur. İndi Yuxarı Qarabağ və Şərqi Zəngəzurda sürətli bərpa-quruculuq işləri həyata keçirilir. İllərlə öz doğma el-obalarına həsrət qalan soydaşlarımızın böyük qayıdışı yaşanır. Milyardlarla vəsait hesabına həyata keçirilən bu işləri Azərbaycan öz daxili maliyyə imkanları ilə reallaşdırır. Dayanıqlı və sabit iqtisadi inkişaf hesabına formalaşan bu müstəqil imkanların əsas özülünü isə 29 il əvvəl ulu öndər tərəfindən imza atılan “Əsrin müqaviləsi” təşkil edir.

SONRAKI UĞURLARIN TƏMƏLİNİ QOYAN SAZİŞ

Bunun məntiqi nəticəsi olaraq “Əsrin müqaviləsi”ndən sonra xarici şirkətlərlə Azərbaycan dövləti arasında neft-qaz yataqlarının işlənməsi sahəsində daha 34 saziş imzalanıb. Nəticədə 2010-cu ildə Azərbaycanda neft istehsalı, tarixində rekord həddə çatıb. Ölkəmizin neft-qaz siyasəti sonrakı illərdə daha da genişləndi və qlobal əhəmiyyət daşımağa başladı. Avropa ölkələrinin neftə olan tələbatının ödənilməsində mühüm əhəmiyyət daşıyan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft ixrac kəməri inşa edildi. Azərbaycan iqtisadiyyatının əsas maliyyə arteriyalarından olan bu kəmər “Əsrin müqaviləsi” adını alan sazişin imzadan praktik fəaliyyətə köçürüldüyünün isbatı idi.

ÖLKƏMİZ QARŞISINDA AÇILAN GENİŞ İMKANLAR

“Əsrin müqaviləsi”nin ölkəmizin qarşısında açdığı geniş imkanlar nəticəsində Bakı hədəflərinə doğru inamla irəliləyir.

Bu gün Azərbaycan ardıcıl olaraq qlobal enerji təhlükəsizliyinin təminə əhəmiyyətli töhfələr verən mühüm beynəlxalq layihələrə imza atır. TANAP, TAP kimi meqalayihələr məhz Azərbaycanın təşəbbüsü və maliyyə imkanları hesabına reallaşıb. Artıq ölkəmiz tək neft ixracatçısı yox, həm də qaz ixracatçısıdır. Avropa İttifaqı ilə Azərbaycan arasında bu sahədə əməkdaşlıq yeni inkişaf mərhələsindədir. Burada yaşıl enerji ixracı ilə bağlı imzalanan sazişlər xüsusilə qeyd edilməlidir.

Ermənistanda vektor dəyişikliyi

Nikol Paşinyanın son günlər ard-arda verdiyi açıqlamalar ölkədə vəziyyətin nə dərəcədə acınacaqlı olduğundan xəbər verir. Baş nazirin açıqlamaları, Ermənistanda ABŞ ilə birgə hərbi təlimlər Rusiyadan üz döndərmək, yeni strateji müttəfiq axtarışı kimi də qiymətləndirilir.

FUAD ABASOĞLU

Təhlükəsizliklə bağlı ciddi problemləri olan, 2020-ci il müharibəsində acı məğlubiyyətdən sonra ordusu və texniki bazası darmadağın edilən Ermənistan Rusiyadan tam qopmaq niyyətindədir. Baş nazir Nikol Paşinyan öz aləmində ölkənin təhlükəsizliyini təmin etmək üçün başqa müttəfiqlər axtarışına çıxıb. Baş nazirin "la Repubblica" qəzetinə müsahibəsində təhlükəsizlik sferasının bir mərkəzə bağlı olmasını strateji səhv adlandırması da Ermənistanın strateji vektorunu dəyişməyə hazır olmasından xəbər verir. Şübhəsiz ki, açıqlamadakı təhlükəsizlik sferasının bağlı olduğu mərkəz deyildikdə Rusiya nəzərdə tutulur. Bu açıqlama Rusiya siyasi dairələrində qəzəblə qarşılandı və "Rusiya Cənubi Qafqazı tərk etmək niyyətində deyil" cavabı gəldi. Çünki Kreml də bu açıqlamanın Cənubi Qafqazdan sıxışdırma planının tərkib hissəsi olduğunu dərk edir.

KTMT İLƏ MÜNASİBƏTLƏR DAHA DA GƏRGİNLƏŞİR

Belarusda keçirilən KTMT təlimlərində Ermənistanın iştirak etməməsi fonunda İrəvanda ABŞ ilə birgə hərbi təlimlərin kemirilməsi də nəzərdən yayınmayıb. Bu, müəyyən siyasi dairələrdə Ermənistanın yaxın zamanlarda alyansı tərk edəcəyinə işarə kimi qəbul edilib. Son dövrlər, xüsusən də müharibədən sonra keçən 3 il ərzində Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən KTMT ünvanına tənqidi fikirlərin səsləndirilməsi adət halını alıb. Üzünü Qərbə tutan Paşinyanın Azərbaycanla sərhədə Aİ müşahidəçilərini dəvət etməsi də KTMT-yə qarşı atılan addım kimi qiymətləndirilməlidir. Rusiya rəsmiləri dəfələrlə KTMT müşahidəçilərini sərhədə göndərməyə hazır olduqlarını bildirsələr də, daşdan səs çıxıb, Paşinyandan cavab gəlməyib. Artıq ABŞ-dən də Ermənistanın Rusiyanın orbitindən çıxarılmasının əsas hədəflərdən biri olduğuna dair açıq bəyanatlar verilir və bu rəsmi olaraq etiraf edilir.

Qeyd etmək yerinə düşər ki, 2022-ci ilin sentyabrında Ermənistan Kəlbəcər və Laçın istiqamətində təxribat törətməyə cəhd etmiş və Azərbaycan tərəfindən lazımi cavabını almışdı. Dərhal KTMT-yə müraciət edilsə də, alyans müdaxilə ilə bağlı heç bir addım atmamışdı. Quyruq yarası acı olduğu kimi, erməni rəhbərliyi bunu unuda bilmir.

QHT SƏVİYYƏSİNDƏ "NATO-YA GƏL" ÇAĞIRIŞI

Paşinyanın Rusiyanı strateji müttəfiq kimi bəyənməməsi ilə bağlı açıqlaması Qərbi daha da aktivləşdirib. Sentyabrın 4-də NATO-nun genişlənməsi üzrə QHT rəhbəri Günter Felinqer Ermənistanı hərbi alyansa üzv olmağa dəvət edib. Dəvətin bir QHT rəhbəri tərəfindən edilməsi əlbəttə ki, Qərbin İrəvana qarşı ironik münasibətindən xəbər verir. Ya da ola bilsin, NATO hələlik QHT səviyyəsində vəziyyəti öyrənməyə cəhd edir.

MƏQSƏD ERMƏNİSTANIN RUSİYA İLƏ İPLƏRİNİ QOPARTMAQDIR

Amma Gürcüstan və Ukrayna 10 ildən çoxdur ki, NATO-ya üzv olmağa can atsalar da, hələ də bu yolda bir addım atılmayıb. Ermənistanla bağlı QHT sədri səviyyəsində verilən bəyanat da siyasi və psixoloji yoxlanışdan başqa bir şey deyil. Əslində bu təklifin səslənməsi Ermənistana dəvətdən çox, Rusiya əleyhinə səsləndirilmiş bəyanat kimi qəbul edilməlidir. Əsas məqsəd Ermənistanın Rusiya ilə iplərini qopartmaq, Moskvanı Cənubi Qafqazdan tam sıxışdırıb çıxarmaq və ən əsası, Gümrüdəki 102-ci bazanı ləğv etməkdir. Hazırda Ermənistanda KTMT və NATO-nun gizli savaşı gedir.

ERMƏNİSTAN İRANI DA QICIQLANDIRIR

Şübhəsiz ki, Ermənistanın regiona NATO və Qərbi dəvət etməsi İranın da qıcıqlanmasına səbəb olub. Xüsusilə, ABŞ ilə birgə hərbi təlimlərdən dərhal sonra Tehran İrəvana xəbərdarlıq edib. Hətta "Dağlıq Qarabağ Azərbaycandır" deyib. İran rəsmiləri gözəl anlayırlar ki, Ermənistanda fəaliyyət göstərən Aİ müşahidəçilərinin və ABŞ səfirliyinin fəaliyyət istiqamətlərindən biri də İran-Ermənistan sərhədində monitorinq aparmaq və lazımi məlumatları müəyyən mərkəzlərə ötürməkdir. Bu baxımdan Ermənistanın yenidən Qərbə üz tutması, bu dəfə strateji müttəfiq axtarması rəsmi Tehranın sərt reaksiyasına səbəb olub.

İRƏVANIN QƏRBƏ GEDƏN YOLU TÜRKİYƏDƏN KEÇİR

Ermənistan strateji vektorunu dəyişərək Qərbi seçmək arzusundadır. Qərbin isə regiondakı əsas müttəfiqi Türkiyə olduğu üçün Ermənistan ilk növbədə Ankara ilə münasibətlərini tam normallaşdırmaq məcburiyyətindədir. Türkiyə isə Azərbaycanın strateji müttəfiqidir və münasibətləri normallaşdırmaq üçün rəsmi İrəvana şərtlərini təqdim edib. Bu şərtlər sırasında Azərbaycanın ərazi bütövlüyünün tanınması və sülh müqaviləsinin imzalanması da var. Bu səbəbdən də Ermənistan əgər Qərbə üz tutursa, ilk növbədə Türkiyə ilə münasibətləri normallaşdırmaq məcburiyyətindədir. Tək Fransaya güvənməklə iş bitmir. Zatən Afrikada vəziyyəti getdikcə pisləşən Fransada siyasi ab-hava yaxşı deyil. Laçın yolu ətrafında yaradılan süni qalmaqal Fransaya Rusiya ilə münasibətləri aydınlaşdırmaq üçün lazımdır. Əslində nə Ermənistan, nə də ki Qarabağdakı ermənilər Fransanı maraqlandırmır. Bu iki faktor Paris üçün sadəcə, siyasi alətdir.

AZƏRBAYCANIN DİPLOMATİK QƏLƏBƏSİ

Ermənistandan fərqli olaraq Azərbaycanın strateji müttəfiqləri günü-gündən artır. Ermənistanın KTMT-dəki müttəfiqləri belə, Azərbaycanla yaxşı əlaqələrə sahibdirlər. İslam dünyası ilə uğurlu əməkdaşlıq, müşahidəçi və ekspertlərin işğaldan azad edilmiş ərazilərə təşkil edilən səfərləri də rəsmi Bakının xarici siyasət kursunun nə qədər uğurlu olmasından xəbər verir. Bu, Azərbaycanın diplomatik qələbəsi, Ermənistanın isə diplomatik məğlubiyyəti deməkdir...

FRANSA müstəmləkəçiliyinin İFLASI

Makronun dövlət başçısı olduğu müddətdə anti-fransız əhval-ruhiyyə pik həddə çatıb. Bir neçə il əvvəl Malidə və Burkino-Fasoda hakimiyyəti ələ keçirən hərbçilər Fransa ilə əlaqələri minimuma endiriblər. Hətta, bu ölkələrdə Fransa televiziya kanallarının yayımı qadağan edilib. İndi isə Nigerdə və Qabonda hərbi çevrilişlər Fransaya növbəti zərbəni vurmaqdadır.

AZƏR NURİYEV
azernuriyev@kaspi.az

Ermənistana və Qarabağdakı bir ovuc erməni separatçıya başı qarışan Fransa, əvəzində on illərdir soyub taladığı, milyonlarla insanı sorğusuz-sualsız qətlə yetirdiyi keçmiş müstəmləkələri ilə vidalaşmaq üzrədir. Afrika qitəsi Fransadan, onu xatırladan hər şeydən sürətlə uzaqlaşmaq xəttini götürüb. "Qara qitə" fransız idarəçiliyinə, müstəmləkə siyasətinə son verməkdə israrlı görünür.

NİGERİ İTİRMƏK FRANSA ÜÇÜN DAHA AĞRILIDIR

Fakt odur ki, bu uzaqlaşmada indiki prezident Emmanuel Makronun rolu əvəzsizdir. Uzun müddətdir ölkə daxilində yaşanan etirazlar indi sürətlə Fransanın vaxtilə müstəmləkəsi olan ərazilərə yayılıb. İfrat dərəcədə sərt siyasət, pozulan hüquqlar, müstəmləkəçi yanaşma etirazların dalğasını genişləndirib. Fransanın fəxrlə elan etdiyi frankomaniya ideyasının da artıq nifrət doğurduğunu demək mümkündür. Keçmiş müstəmləkələrdə "Fransa" dedikdə zorakılıq, insan hüquqlarının pozulması başa düşülür. Afrika ölkələrində bir-birinin ardınca etirazlar, qiyamlar, dövlət çevrilişləri də bunu təsdiqləyir. Məhz Makronun dövlət başçısı olduğu müddətdə anti-fransız əhval-ruhiyyə pik həddə çatıb. Bir neçə il əvvəl Malidə və Burkino-Fasoda hakimiyyəti ələ keçirən hərbçilər Fransa ilə əlaqələri minimuma endiriblər. Hətta, bu ölkələrdə Fransa televiziya kanallarının yayımı qadağan edilib. İndi isə Nigerdə və Qabonda hərbi çevrilişlər Fransaya növbəti zərbəni vurmaqdadır. Əsasən Paris üçün illər uzunu milyardlar qazandıran Niger indi yalnız Fransa hərbi kontingentinin ölkədən çıxıb getməsini istəyir. Nədən? Səbəbini də Makron bilməmiş deyil. Nigerlilər sadəcə yeridilən çirkin və iyrənc müstəmləkə və irqi-ayrıseçkilik, ölkənin sərvətlərinin talanması siyasətinə son qoymaq istəyirlər. Halbuki, Niger Makrona qədər Fransanı ən yaxın tərəfdaş ölkə sayırdı. İndi isə hərbçilər və onlara dəstək verənlər Fransanın ölkəni tərk etməsini istəyir.

MAKRON MÜQAVİMƏT GÖSTƏRİR

Fransanın Nigerdə təxminən min nəfərlik hərbi heyəti var. Nigerdə artıq fransız dili rəsmi dil statusundan məhrum edilib. Ölkə dünyada uran istehsalının həcminə görə yeddinci, Afrikada isə ikinci ölkədir. Fransa da urana ehtiyacı olan əsas Avropa ölkəsidir. Nigeri itirmək Fransa üçün daha ağrılıdır. Çünki Niger Avropa İttifaqını, o cümlədən Fransanı uranla təmin edən 3 ölkədən (digər ikisi Kanada və Qazaxıstandır) biridir. Fransada elektrik enerjisinin 75 faizi ölkədəki atom elektrik stansiyalarından əldə edilir.

E.Makron G20 ölkələrinin Hindistanda keçirilən son toplantısında hər kəsi şoka salan bəyanatı ilə gündəm olub. Bildirib ki, Nigeri tərk etmək fikrində deyillər. Ehtimallara görə, Fransa müdaxilə üçün onun tabeliyində olan, marionet Qərbi Afrika Ölkələri İqtisadi Birliyindən (ECOWAS) yararlana bilər. Bu qurumun hərbi heyəti var və 15 ölkə daxildir. Əgər hərbi müdaxilə baş verərsə, bu ölkəni daxili gərginliyə gətirib çıxara bilər.

"FRANSA NİGERİ ÖLDÜRÜR"

Yeri gəlmişkən, demokratiyadan, insan hüquqlarından daim dəm vuran Makron Nigerdən qovulmuş, lakin imtiyazları və toxunulmazlığının ləğvinə rəğmən bu ölkəni tərk etmək istəməyən fransız səfiri Silvain İtteni "cəsarətli diplomat" adlandırıb. Nigerin baş naziri Əli Mahaman Lamine Zeyne Fransanın dövlət başçısının bu bəyanatını qəbuledilməz və onun ölkəsinə qarşı hörmətsizlik adlandırıb. Əlavə edib ki, İtte özünü diplomat kimi aparmayıb və ona təcili olaraq ölkəni tərk etməsi barədə xəbərdarlıq edilib. Hörmətsiz yanaşma paytaxt Niameydə minlərlə etirazçının aksiyasına səbəb olub. Aksiya iştirakçıları "Fransa Nigeri öldürür", "Biz müharibə istəmirik!", "Nigerə qarşı müharibə ədalətsizdir!" şüarları ilə yürüş ediblər. Nümayişçilər əllərində Nigeriya və Niger bayraqlarını daşıyıblar, Fransa bayrağını isə yerə atıblar. Aksiya iştirakçıları "Rədd ol, Fransa! Fransa, bizi rahat burax!", "Fransa bizim problemləri həll edə bilmədi, taleyimizi öz əlimizə götürməliyik" və bu kimi digər anti-fransız şüarlar səsləndiriblər. Onlar həmçinin Fransa qoşunlarının Nigerdən çıxarılmasını tələb ediblər. Nigerdəki fransız mövcudluğuna qarşı aksiyalar yeni deyil. Hələ bir il öncə - 2022-ci ilin sentyabr ayında yüzlərlə insan ölkənin parlamenti qarşısında Fransanın hərbi mövcudluğuna qarşı etiraz aksiyası keçirmişdi.

AFRİKADAKI VƏZİYYƏT QƏRB-ÇİN QARŞIDURMASININ NƏTİCƏSİDİR?

Maraqlıdır ki, Nigerdə gərginlikdə beynəlxalq güclərin roluna gəldikdə, daha çox Çinin adı çəkilir. Bu, Qərblə Rusiya-Çin cütlüyünün mübarizəsinin göstəricisi sayılır. Pekin Afrikanın sahillərində hərbi bazalar yaratmaq niyyətindədir. Bir neçə il əvvəl onun Cibutidə hərbi baza yaratması buna örnək ola bilər. Çin 2018-ci ildə Afrika ölkələrinə 200 milyard dollarlıq sərmayə qoyub. Odur ki, Nigerdə baş verənləri Pekinlə Moskvanın birgə əməliyyatı da saymaq olar. Ehtimallara görə, Ukraynadakı hadisələrdən diqqəti yayındırmaq, yaxud şərtlərini qəbul etdirmək üçün Rusiya Afrikada ABŞ başda olmaqla Qərbin maraqlarına qarşı belə hadisələr törədə bilər. Qitə ölkələrinin bir çoxu vaxtı ilə SSRİ-nin nüfuz dairəsində olub. Bu isə həmin ölkələrdə vəziyyəti qarışdırmaq üçün Rusiyanın imkanlarının hələ də tükənmədiyini ehtimal etməyə əsas verir. İyulun 30-da Fransanın paytaxt Niamedəki səfirliyinin binası qarşısında keçirilən nümayişdə "Yaşasın Rusiya!", "Yaşasın Putin!", "Rədd olsun Fransa!" şüarlarının səslənməsi də təsadüfü deyil.

Fransaya qayıtsaq, Niger əldən çıxarsa, Paris başqa ölkədən uran idxal etmək məcburiyyətində qalacaq. Problem yalnız uranla da bağlı deyil. Fransanın Afrikada itirdiyi ölkələr Rusiya və Çinlə əməkdaşlığa üstünlük verirlər. Makronun Cənubi Qafqaz siyasəti bərbad olduğu kimi, Afrika siyasətinin də uğursuzluğa düçar olacağı şəksizdir. Afrikadakı yerdə qalan tərəfdaşlarını Nigerə qarşı sərt mövqe sərgilməyə məcbur etməyə çalışarsa, bu onun olan-qalan nüfuzunu da heç edəcək.

YENİ TƏDRİS İLİNƏ MÖHTƏŞƏM HƏDİYYƏ

Heydər Əliyev Fondunun təhsil sahəsində həyata keçirdiyi layihələr çərçivəsində 2004-cü ildən etibarən 500 məktəb inşa və təmir olunaraq istifadəyə verilib. Fond bu il də ölkəmizin müxtəlif şəhər və rayonlarında yeni tədris ocaqlarının inşa olunması ənənəsinə sadiq qalıb. Bu il istifadəyə verilən təhsil müəssisələrinin sayı 22-dir.

Ənənəsinə sadiq qalan Heydər Əliyev Fondunun dəstəyi ilə bu il də ölkəmizin müxtəlif şəhər və rayonlarında yeni tədris ocaqları inşa olunaraq, yaxud əsaslı bərpa edilərək istifadəyə verilib. Bu il Fond tərəfindən istifadəyə verilən təhsil müəssisələrinin sayı 22-dir. Onlardan 19-u məktəb, 3-ü isə məktəbəqədər müəssisədir. Tədris ili ərzində Heydər Əliyev Fondu tərəfindən inşa və təmir edilən daha 10 məktəbin açılışı nəzərdə tutulur.

GÖYÇAY, İSMAYILLI, QƏBƏLƏ...

Göyçay şəhərində 624 şagird yerlik 6 saylı məktəbdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir-bərpa işləri aparılıb, İsmayıllı rayonunda 280 şagird yerlik 4 saylı tam orta məktəb üçün isə yeni bina tikilib. Fondun təhsillə bağlı digər layihəsi isə Qəbələ rayonunun payına düşür. Qəbələnin Nic qəsəbəsində Heydər Əliyev Fondunun təşəbbüsü ilə 1 nömrəli tam orta məktəbin binası inşa edilərək istifadəyə verilib. Qeyd edək ki, Prezident İlham Əliyev və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın 2021-ci ilin may ayında Nic qəsəbəsindəki Müqəddəs Məryəm Ana Alban kilsəsində Fondun apardığı bərpa işləri ilə tanışlığı zamanı Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili dövlət başçısına burada 150 yaşı olan məktəbin təmiri ilə bağlı müraciət etmişdi.

500-CÜ MƏKTƏB İSTİFADƏYƏ VERİLDİ

Heydər Əliyev Fondunun inşa etdiyi 500-cü məktəb də istifadəyə verilib. Bu il Bilik Günündə Fondun 500-cü məktəbi Şamaxı rayonunun Göylər kəndində şagird və müəllimlərin ixtiyarına verilib. Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov burada şagirdlər və valideynlərlə görüşüb, Prezident İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın salamlarını çatdırıb. O, şagirdlərə yaradılan bu şəraitdən istifadə edərək, yaxşı oxumağı tövsiyə edib.

Beləliklə, Heydər Əliyev Fondunun dəstəyi ilə yeni təhsil ocaqlarının istifadəyə verilməsi ölkədə gənc nəslin daha bilikli yetişməsinə və keyfiyyətli təhsil almalarına daha bir töhfədir. Yarandığı gündən təhsil sahəsinə xüsusi həssaslıqla yanaşan, bu sahənin inkişafını fəaliyyətinin prioritet istiqaməti elan edən Fond "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" kimi proqramların icrası ilə təhsil sahəsinə öz dəstəyini göstərir, müasir standartlara cavab verən təhsil kompleksləri yaradır, tədrisin keyfiyyətini yüksəltmək məqsədi ilə təhsil müəssisələri əyani vəsaitlərlə təmin olunur. Heydər Əliyev Fondunun təhsil sahəsində həyata keçirdiyi layihələr çərçivəsində 2004-cü ildən etibarən 500 məktəb inşa və təmir olunaraq istifadəyə verilib. Fondun təhsilin keyfiyyətinin daha da yaxşılaşdırılmasına, məktəblərin maddi-texniki bazasının gücləndirilməsinə verdiyi töhfələr bu il də yüzlərlə şagirdin, müəllim və valideynin sevincinə səbəb olub.

BAXIŞ

KUBRA MƏHƏRRƏMOVA

Görək onda nə deyəcəklər?!

Ömrümüzün 30 ili təəssüf ki, Qarabağ dərdinə xərclənib getdi. Kiminsə uşaqlığı, kiminsə gəncliyi-cavanlığı, bir çoxlarının ömrü...

Çox şükür, bu gün işğaldan azad olunan ərazilər bizdədir, evindədir. Qarabağ iqtisadi rayonu dirçəlir, böyüyür, inkişaf edir, bir sözlə - bərpa olunur.

Yollar çəkilir, məktəblər, binalar, xəstəxanalar tikilir. İnsanlar öz doğma evlərinə, torpaqlarına geri qayıdır.

Amma bu qədər işlər görüldükcə, milyardlarla pul Qarabağın bərpası üçün xərcləndikcə, yenə də ağızbüzənlər dəstəsi ortaya çıxır ki, salınan asfaltın rəngi o deyil, daha yaxşı ola bilərdi.

Adamın əli üzündə qalır. Dünənə kimi Qarabağın "q" hərfinə yaxın düşə bilmirdin, indi bu nə narazılıqdır?

Dünənə kimi başını qaldırıb Ağdam, Füzuli, Şuşa tərəfə baxa bilmirdin, nəyin ağız büzməyidir bu?

MÜHARİBƏYƏ QƏDƏR DEYİNİRDİLƏR Kİ...

Müharibəyə qədər deyinirdilər ki, "torpaqlar getdi, vəssalam". Torpaqları ordu, xalq, Ali Baş Komandan düşməndən geri aldı.

Müharibə qələbə ilə bitdi, başladılar ki, bu yarımçıq qələbədir, Xankəndidə Azərbaycanın bayrağı asılmayıb.

Laçın-Şuşa yolunda eko-aksiya başladı, dedilər ki, yalandan camaatı töküblər küçələrə, heç nə olan deyil.

Laçın-Xankəndi yolunda Lavrov "Bu heç vaxt baş verə bilməz" deyəndən 10 gün sonra rəsmi Bakı sərhəd-keçid məntəqəsini qurdu. Yenə bu ağız büzənlər dedilər ki, özbaşına deyillər, necə qurublar, eləcə də sökəcəklər.

ÜÇ YÜZ İLDƏ GÖRÜLMƏYƏN İŞLƏR GEDİR

Nəhayət, otuz ildən sonra Ağdam-Xankəndi yolu işə düşüb, Qarabağda Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazidə yaşayan ermənilərin ehtiyaclarının qarşılanması üçün TIR məhz bu yoldan keçib ünvana çatdı. İndi də deyirlər ki, camaatı aldatmayın, bunun heç bir mənası yoxdur. Bəs, o yoldan bizim TIR-lar keçməli idi, Rusiya Qızıl Xaç Cəmiyyəti tərəfindən göndərilən yük maşını yox.

Ya bu adamlar həqiqətən də, baş verənlərin mahiyyətini anlamır, ya da çox narazıdırlar həyatdan. Üç yüz ildə görülməyən işlər gedir, bunlar naz atırlar. Sadəcə maraqlıdır, kimə?

Yüklərin məhz Ağdam-Xankəndi yoluyla ünvana çatdırılması Azərbaycan tərəfinin prinsipiallığı və ortaya qoyduğu siyasi iradənin nəticəsi idi. Bir addım da geri atmadı rəsmi Bakı. Dedi, ya humanitar karvan bu yoldan, Azərbaycanın suveren ərazilərindən keçəcək, ya da keçməyəcək!

Bu addımıyla da Qərb dövlətləri, Qərbin nüfuzlu təşkilatlarının burnunu da ovmuş oldu. Amma və lakin bizim ağızbüzənlər üçün bu göstərici deyil. Yəni o deyil...

İndi sual olunur ki, bəs niyə "əski parçasını" hardasa iki dəfə atıb-tutanda ermənilər bunu bütün manşetlərə çıxarır, alqışlayır, bir şou yaradır ki, elə bilirsən Marsda torpaq alıblar.

Kardaşyan iki dənə status paylaşır, bütün dünya ermənilər bunu bir hadisə, bir gündəm, bir qışqır-bağır edirlər, sanki xərçəng əleyhinə dərman tapıb, ya da atomu yenidən ermənicə parçalayıb.

Hansısa V sort erməni hansısa Youtube kanalında nəsə sayıqlayır, dünya ermənilər az qala bunu edirlər dünya səviyyəli politoloq-ekspert.

Niyə?!

XÜSUSİ TƏYİNATLI DİVAN DÖYÜŞÇÜLƏRİ

Ermənistanın bu gün dövlət kimi varlığı artıq sual altında olduğu halda (bunu artıq çox sayda ekspertlər deyir) onlar dirənir, özlərinə təriflər yağdırır, güclü və uğurlu olduqlarını bildirirlər.

Azərbaycan isə bu qədər yol qət edib, xüsusi təyinatlı divan döyüşçüləri isə hər şeydən narazıdır.

Bircə onu bilirəm ki, hakimiyyətə qarşı müxalif olmaq başqa şeydir, torpağa, dövlətə, xalqa, dövlətçiliyə düşmən olmaq başqa.

Çox keçməz, Azərbaycan bayrağı Xankəndidə də dalğalanar. Görək onda nə deyəcəklər?!

191 DƏFƏ RƏDD CAVABI ALSA DA, YOLUNDAN DÖNMƏYİB QARŞISINA QOYDUĞU MƏQSƏDİNƏ ÇATIB

“MÜƏLLİM MÜDİR YOX, LİDER OLMALIDIR”

Niderlandda müəllim işləyən azərbaycanlı Rasim Mollayev: “Dərs keçən vaxt özümü konsertdə müğənni kimi hiss edirəm. Təsəvvür edin, sinifdə qarşında ən az 20 nəfər tələbə səni dinləyir və çıxış edirsən. Elə performans göstərməliyəm ki, o şagirdlərin yadından uzun müddət çıxmasın”.

SÖHBƏTLƏŞDİ
AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Əzmkarlığı, iddiası, özgüvəni onu daim irəli aparıb. İşə qəbul üçün göndərdiyi elanlardan 191 dəfə rədd cavabı alsa da, yolundan dönməyib. Nəhayət, tələbə vaxtı qarşısına qoyduğu məqsədinə çatıb və karyerasını arzuladığı mühitdə davam etdirib. Hətta 191 dəfə rədd cavabı aldığı ölkədə rəhbər vəzifəyə qədər yüksəlib.

Müsahibimiz Niderlandda Haaqa Tətbiqi Elmlər Universitetində Beynəlxalq biznes proqramında müəllim işləyən azərbaycanlı Rasim Mollayevdir. Həmsöhbətimiz həm də Beynəlxalq biznes fakültəsinin birinci kurslarının və həmin universitetdə İnformasiyanın idarə olunması fənninin elmi metodik rəhbəridir.

Bakıda anadan olub. Orta məktəbi bitirdikdən sonra təhsilini ADA Universitetində İnformasiya Texnologiyaları və Sistemlər Mühəndisliyi ixtisası üzrə davam etdirib. Həmçinin, Azərbaycan Dövlət İqtisad Universitetində biznesin idarə edilməsi üzrə magistr təhsili alıb. Daha sonra təhsil aldığı universitetlərdə və özəl kurslarda müəllim kimi çalışıb.

“UŞAQLARIN HƏYATLARINI DƏYİŞDİYİMİ FƏRQ ETDİM”

● Rasim bəy, ilk müəllimlik təcrübəniz 1-ci kursda olub. Müəllim olmağa o zaman qərar verdiniz, yoxsa əvvəldən planınızda var idi?

● Əvvəldən planlaşdırmamışdım. Hətta uşaq vaxtı deyirdim ki, yaxşı ki, 3-cü qrupu seçməmişəm, yoxsa müəllim olardım. Birinci kursda oxuyanda ADA ilə Təhsil Nazirliyinin layihəsi var idi. Professor Fuad Hacıyev İT üzrə bilikləri artırmaq və şagirdlərdə İT-yə maraq yaratmaq üçün bizi məktəblərə göndərirdi. Öyrəndiklərimizi şagirdlərə öyrədirdik. Yadımdadır, ilk dərsdə sinifdə 3-4 şagird var idi. İkinci dərsdə isə artıq 20 şagirdə müəllimlik edirdim. Bu peşəyə maraq da məhz o zaman yarandı. Çünki orada bir neçə şagird var idi ki, dərslərimdən sonra informatika olimpiadalarında yer tutdu. Digər şagirdim isə dedi ki, “Tam başqa sahədə təhsil almağı planlaşdırırdım, indi İT təhsili almaq istəyirəm”. Uşaqların həyatlarını dəyişdiyimi fərq etdim. Bu, müəllim sənətini sevməyə kifayət edirdi.

● Bu peşə ilə insanların həyatına toxuna bilmək cəlbedici idi?

● Bəli. Şagirdin yadında qalmaq, gələcək həyatında ona müsbət mənada təsir edə bilmək cəlbedicidir. Bəlkə də eqoist səslənir, amma bu, mənə motivasiya verirdi. Mən dərs keçən vaxt özümü konsertdə müğənni kimi hiss edirəm. Təsəvvür edin, sinifdə qarşında ən az 20 nəfər tələbə səni dinləyir və çıxış edirsən. Elə performans göstərməliyəm ki, o şagirdlərin yadından uzun müddət çıxmasın. Hər detala fikir verirəm ki, tələbələr dərsi “vao” hissi ilə bitirsinlər.

“BU İXTİSASA SEVƏRƏK GƏLƏNLƏR AZDIR”

● Sənətinizin vurğunusunuz. Bir neçə il bundan öncəyə qədər müəllimlik sənətinin əhəmiyyəti dərk edilmir, daha az bal topladıqları, yaxud “qız sənəti” kimi düşündükləri üçün bu sahəyə üz tuturdular. Nə üçün bu peşəyə sevərək yiyələnənlər azdır?

● Təəssüf ki, müəllimliklə bağlı belə fikirlər mövcuddur. Amma hazırda bu peşənin prestijini artırmaq üçün modellər tətbiq edilir. Məsələn, Pedaqoji Universitetlə Amerikanın Corc Vaşinqton Universitetinin birlikdə layihəsi var. Yəni, orada təhsil alan müəllimlər iki diploma sahib ola bilirlər. Qazaxda Müəllimlər Seminariyası açıldı. Dövlət müəllimliyin prestijini qaldırmaq üçün maksimum dərəcədə çalışır. Lakin insanların düşüncəsində bunu dəyişmək vaxt aparır. “Qadınsansa, müəllim olmalısan” kimi stereotiplərimiz hələ də var. Bu ixtisasa sevərək gələnlər azdır, çünki orta məktəblərdə gördükləri bu sənətə dırnaqarası baxdırır. Səbəb odur ki, məktəblərin də əksəriyyətində sevərək, sənətini layiqincə təmsil edənlər azdır.

“MÜƏLLİMİ MENECER KİMİ DÜŞÜNƏ BİLƏRİK”

● Bəs sizcə, əsl müəllimlik nədir? Müəllimdə hansı keyfiyyətlər mütləq olmalıdır?

● Məncə, müəllimi menecer kimi düşünə bilərik. Sinfində olan tələbələri isə onun işçiləridir. Müəllim şagirdlərin qarşısına “Bu gün bunları etməlisən” kimi şərtlər qoysa, bu, müdirlikdir. Bu işi görmək üçün motivasiya verib, onda inam yaratsa, bu, liderlikdir. Müəllim müdir yox, lider olmalıdır. Müəllimdə olan keyfiyyətlərə gəldikdə isə, ən əsası həssas olmalıdır. Yəni siz şagirdin nə düşündüyünü anlamalısınız. Həssas olmayan insan müəllim ola bilməz. Həmçinin, empatiya hissin olmalıdır. Türk professor deyir ki, tələbənin, yaxud şagirdin ürəyinə girmədən beyninə girmək mümkün deyil. Əgər o, sizi sevmirsə, dərsdə oturacaq və sizi dinləməyəcək. Fənni sevsə belə, sizi sevmirsə, öyrənə bilməyəcək. Əsl müəllim tələbələrə özünü sevdirməyi bacarmalıdır. Dərs demək üçün lazım olan digər nüansları öyrənmək mümkündür. Çox adam deyir ki, müəllim mütləq tədris etdiyi sahənin alimi olmalıdır. Xeyr. Həssaslıq və empatiya müəllimin alim olmasından önəmlidir. Həmin ilin proqramını bilməsi kifayətdir. Məktəb müəllimi professor deyil. Professor universitetdə olur. Anatomiya dərsi deyirsə, o demək deyil ki, bu adam həyatımı Tibb Universitetində laboratoriyalarda keçirib. O, sadəcə universitetdə biologiyanı öyrənib. Amma sənə fənni sevdirməklə araşdırmağa həvəs yarada bilər. Yəni, müəllim də nəyisə bilməyə, öyrənə bilər. Amma bəzi xüsusiyyətlər var ki, onlar çox vacibdir və üzərində işlənilməlidir.

“HEÇ BİR MÜƏLLİMİN BUNA HAQQI YOXDUR”

● Şagird olduğunuz dövrlərdə müəllimlərinizin hansı xüsusiyyəti var ki, onu bu gün tətbiq edirsiniz, yaxud hansını heç vaxt tətbiq etməzsiniz?

● Yuxarıda saydığım nüanslar həyat tərzimə çevrilib. Dərsə başlayanda düşünürəm ki, ən azından tələbələrin 80 faizi məni sevməlidir. Heç vaxt etməyəcəyim məsələyə gəldikdə isə, son vaxtlar sosial mediada qarşıma müəllim-şagird konfliktləri çıxır. Söyüş, şiddət - videolarda hər şey var. Sözsüz ki, bunu da araşdırsaq, görərik ki, tələbə müəllimi sevmir və dərsi pozmaq üçün əlindən gələn edir. Digər tərəfdən, Azərbaycanda müəllimlər və valideynlər arasında sovet dövründən qalan bəzi xüsusiyyətlər var. Onlardan ən çox yayılanı “Müəllim şagirdi döyə bilər” kimi fikirlərdir. Bununla razı deyiləm. Tələbənin, yaxud şagirdin yoldaşlarının yanında istər dərslə, istərsə də davranışla bağlı ayağa qaldırılıb, utanc obyektinə çevrilməsini heç vaxt etmərəm. Xoşbəxtlikdən şagird olanda başıma gəlməyib, amma sinif yoldaşlarımda görmüşəm. Təbii ki, şagirdlərlə problemi həll etmənin alternativ yolları var. Dərsdən sonra həmin uşaqla tək qalırsınız və fərdi olaraq danışırsınız. Problemin nə olduğuna, ona necə kömək edəcəyinizlə maraqlanırsınız. Camaatın içində uşağı çıxarıb alçaltmaq düzgün deyil. Sizin qarşınızdakı böyüyən şəxsiyyətdir. Heç bir müəllimin şagirdin psixologiyasını korlamağa haqqı yoxdur. Əminəm ki, Azərbaycanda dövlət məktəblərində təhsil alanların 99 faizi bununla rastlaşıb.

> “Savadlılıq cəhətdən qonşuluqdakı bütün ölkələrdən üstünük, amma stereotiplər bizə inkişaf etməyə imkan vermir. Ailələr uşaqlarının yerinə qərar verir, onlara inanmır və başqa istiqamətlərə yönəldirlər.”

● Rasim bəy, nə üçün Niderlanda getməyə qərar verdiniz?

● Müəllimlərimin əksəriyyətinin Niderlandda ya magistr, ya doktorantura təhsili var idi. Buranın universitetləri dünyanın top universitetləri sırasındadır. Çalışdığım yer reputasiyasına görə ən ideal universitetlərdən biridir. Tələbə vaxtı Niderlandı görüb, sevmişdim. O zaman qərar verdim ki, buraya mütləq gələcəm. Azərbaycanda müəllim üçün nə lazımdırsa, bütün pillələrdə işlədim. Növbəti pillə Niderland idi. Hazırda buradakı təcrübəni öyrənirəm.

“PROBLEMİMİZ ÖZÜMÜZÜ KƏŞF ETMƏMƏKDİR”

● Bəzi insanlar düşünürlər ki, inkişaf etmiş ölkələrdə olan tələbələr öyrənməyə daha çox meyillidirlər. Niderland tələbələri ilə azərbaycanlı tələbələrin fərqi nədir?

● Bizim tələbələr çalışqanlıq baxımından buradakı tələbələrlə eyni, hətta bir çox hallarda üstündürlər. Tək fərq odur ki, burada olan tələbələr seçimlərini istəyərək və sevərək ediblər. Burada davamiyyət anlayışı yoxdur. Siz Azərbaycanda universitetdə bunun olmamağını təsəvvür edirsiniz? Heç kim dərsə gəlməyəcək. Burada isə, əksinə, sinfimdə oturmağa yer olmur, əlavə stul gətirirlər. Çünki tələbələr nəyi nə üçün seçdiklərini bilirlər. Bunun üçün də öz peşələrində uğurlu olurlar. Nə bacarığımızda problem var, nə ağlımızda, nə də dünyagörüşümüzdə. ABŞ-də ölkələrini xəritədə göstərə bilməyən tələbələr var. Bizim tələbələr, hətta bağçada uşaqlar belə, ABŞ-ni də göstərir, ətrafındakı adaları da. Bizim problemimiz özümüzü kəşf etməməkdir. Gələcəyi arzulamaq anlayışımız da yoxdur. Əksəriyyətinin məqsədi hansı ixtisasın olmasından fərqli olmayaraq diplom almaqdır.

● Nə üçün belədir?

● Biz peşə seçimini 17 yaşında edirik. Düşünürəm ki, bu yaşda düzgün qərar vermək mümkün deyil. Çünki insan hələ özünü tanımır. Problem odur ki, biz dəyişiklik etməkdə də çətinlik çəkirik. Məsələn, özümüzü burada tapmırıqsa, dəyişmir, qismət deyib razılaşırıq. Öyrənməyin yaşı yoxdur. Niderlandda elə vaxt olub ki, müəllim olaraq auditoriyada ən gənci mən olmuşam. Onlar bakalavr oxumağa 35 yaşda gəliblər. İkinci məsələ, valideyn müdaxiləsidir. Mən kursda işləyəndə, şagirdlərə bacarıqlar, imtahanlarla bağlı zəng edir, onları seminarlara dəvət edirdik. Ana olurdu ki, telefonda mənə deyirdi ki, “Qızım keydir, o heç nə öyrənə bilməz, məni yormayın”. Valideynin öz övladına inamı yoxdursa, bunu dəyişmək çətindir. Ata olub ki, sınaq nəticələrini bildirmək üçün zəng etmişik, deyib ki, “Sən kimsən qızıma zəng edirsən, nömrəsini sil, qızıma sabah-biri gün elçi gələcək, nə kurs?” Savadlılıq cəhətdən qonşuluqdakı bütün ölkələrdən üstünük, amma stereotiplər bizə inkişaf etməyə imkan vermir. Ailələr uşaqlarının yerinə qərar verir, onlara inanmır və başqa istiqamətlərə yönəldirlər. Bəzi uşaqlar isə şanslı ailələrdə doğulublar və nəticələri də göz qabağındadır.



“TƏLƏBƏ DƏ MÜƏLLİMİ ÖYRƏNMƏYƏ MƏCBUR EDİR”

● Rasim bəy, müəllimlik fəaliyyətinizdə daim öyrətmisiniz. Bəs tələbələrinizdən nə öyrənmisiniz?

● Zaman keçdikdcə, müəllimlik anlayışı dəyişir. Bəzi insanlar düşünür ki, bir semestrdə 15 mövzu var, müəllim əzbərləyir, öyrədir və bu, çox asandır. İndi tələbəyə 15 mövzu verməyə ehtiyac yoxdur. Çünki artıq o mövzuların hər növünü internetdə tapmaq mümkündür. Müəllimin əsas vəzifəsi bunu tələbəyə çatdırmaqdır. Hər tələbə yeni təcrübədir. Siz kimə və 2+2-nin 4 etdiyini izah edirsiniz, amma digəri anlamır. Ona da fərqli yolla izah etməlisiniz. Yaxud başqa tələbə deyir ki, mən 4 olması ilə razı deyiləm, sübut et. Bunun üçün daha çox araşdırırsan ki, isbat edəsən. Tələbə də müəllimi öyrənməyə məcbur edir. Mən bütün tələbələrimdən öyrənmişəm. Dəfələrlə olub ki, verdikləri suala cavab vermək üçün çox uzun araşdırmalar etmişəm. Elə tələbə olub ki, ailəsi ilə bağlı çətin anlardan keçib, həmin vaxt psixoloqluq etməyə çalışmışam. Bəzilərinə öyrətməyin fərqli yolunu kəşf etmişəm. Bu müddətdə daim özüm də öyrənmişəm.

● Sizin haqqınızda həmişə iddialı uşaq olub deyirlər. Bu xarakteriniz karyeranızda tramplin olubmu?

● Əgər nəyisə istəyirəmsə, onu əldə etmək üçün çox çalışıram. Alınmasa belə, vicdanım rahat olur ki, çalışdım, alınmadı. Valideynlərim deyir ki, 3 yaşımda Füzulinin “məni candan usandırdı” qəzəlini əvvəldən axıra kimi deyirdim. Tez danışmaq, öyrənməyə çalışmaq, özümü sübut etmək iddialı olmaqdan irəli gəlib. Məsələn, 1-ci kursda dedim ki, Niderlanda köçməliyəm və müəllim olmalıyam. Bura gəlməyi o qədər beynimə qoymuşdum ki, indi maillərimə baxıram, 1 il ərzində 191 dəfə rədd cavabı almışam. Bu, məni yolumdan döndərmədi. İndi isə burada tək müəllim deyiləm. 1 il ərzində beynəlxalq biznes fakültəsinin birinci kurslarının rəhbəri, informasiyanın idarə olunması dərsinin də elmi, metodik rəhbəri olmağa nail oldum. Ona görə deyirəm ki, Azərbaycan insanı çox fərqlidir. Gördüyümüz çətinliklər bizi əzmkar olmağa öyrədib. Bizim insanımız daha çox uğur qazanmağa meyillidir. Yəni, bizə bir qapı açıldısa, digərlərini özümüz aça-aça gedirik. Niderlandda və demək olar dünyanın bütün inkişaf etmiş ölkələrində hər universitetdə, hər top şirkətdə ən azı bir azərbaycanlı işləyir. Bu, bizim xalqın necə savadlı, hər yerdə uğur qazanan olmasının sübutudur.

BU İL BALIQ BOL OLACAQ

Başlayan balıq mövsümündə alıcıları ən çox maraqlandıran sual yenə də balıqların qiymətləri və keyfiyyətidir. Satıcılar deyir ki, dəniz məhsulları baha olsa da, alıcıları çoxdur. Lakin göl balıqlarının da keyfiyyəti yaxşılaşıb.

ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Fotolar: Rüfət Mikayılov/Global Media Group

ƏVVƏL BALIĞIN ƏTİ PALÇIQ DADI VERİRDİ

Artıq balıq mövsümü başlayıb. Həm bazarlarda, həm də marketlərdə alıcılara təklif olunan balıq məhsullarının çeşidləri də artıb. Biz də başlayan mövsümdə balıq bazarının vəziyyətini öyrənmək üçün üz tutduq "Keşlə" bazarına. Budur, satıcıların müştəri çağırış səsləri yüksəlməyə başlayır. Balıqlar haqqında məlumat əldə etmək üçün piştaxtaların birinə yaxınlaşdıq.

OKTYABRIN ƏVVƏLİ DAHA YAXŞIDIR

Satıcı Xalidə xanım deyir ki, hələ mövsüm indi başlayıb: "Ayın sonunda piştaxtalar daha dolu olur. Mövsüm başlayıb, amma hava hələ istidir. Bol balıq üçün oktyabrın əvvəli daha yaxşıdır. Həmin vaxt İrandan, Rusiyadan yaxşı məhsullar gəlir. İndi 3-5 balıq var, qalanı hələ ki, yoxdur. Mövsüm vaxtı alıcılar da çox olur. Düzdür, yayda da yaxşı işləmişik. Amma tələbat ən çox mövsüm vaxtıdır".

QİYMƏTLƏR DƏYİŞMƏYİB

Balığın qiymətlərinə gəlincə, satıcı xanım deyir ki, qiymətlər bahalaşmayıb:

"Qızılxallı (forel) 11 manat, Naxçıvan çəkisi (sazanı) 10 manat, göl balıqları 7-8 manatadır. Biz topdan gətirən balıqçılardan alıb üzərinə 50 qəpik qoyub satırıq. Qiymətlər yaxşıdır, qalxmayıb. Mövsümdə də qiymətlər elə eyni qalır. Əksinə, məhsul çoxaldıqca qiymətlər daha da aşağı düşür. Mal az olanda bahalaşır. İndi ən çox qızılxallı (forel), bölgə (beluqa), Naxçıvan çəkisi satılır".

Xalidə xanım bildirir ki, böyük balıqlar əsasən xaricdən gətirilir: "İran balıqlarını - bölgə və "forel"i özümüz yetişdirə bilmirik. Çünki ölçüsü bu qədər böyük olmur. Onlarda göl böyükdür, 300-500 hektar ərazidə yetişdirirlər, amma bizdə o şərait yoxdur, cəmi 5-10 hektardır. Amma İranda elə yetişdirilir ki, elə bil dənizdən çıxarılıb. Məsələn, 10 il əvvəl bu qədər ağ balıq yox idi. Çünki yetişdirə bilmirdilər".

DƏNİZ MƏHSULLARI DAHA BAHADIR

Həmsöhbətimiz ilə danışdıqdan sonra digər satıcı xanıma yaxınlaşırıq. Xanım bildirir ki, dəniz balıqları qiymət cəhətdən daha baha olsa da, alıcısı da həmişə boldur: "Göl balığı da var, dəniz də. Vannanın içərisində olanlar göl balığıdır. Dəniz balığına təbii sıf (sudak), Naxçıvan sazanı, kefal, ziyad (kütüm) daxildir. Sazan (çəki), ağ amur (belamor) isə göldə yetişir. Sıf 15 manat, Naxçıvan çəkisi 10-12 manat, kefal 10 manatdır. Hazırda tək ziyad balığı yoxdur. Çünki havalar soyuduqda olacaq. Amma balığın az və ya çox olacağını əvvəldən bilmək olmur. Lakin hər il mövsüm vaxtı həm balıq bol olur, həm də müştəri".

Bazarda müştəri azlığı hiss edilir. Satıcı Təranə xanım bildirir ki, həftə sonları insanlar bazarda daha çox olur. Həm də hazırda məktəb mövsümü yeni başlayıb, insanlar məzuniyyətdən yeni qayıdır deyə alver azdır. Amma sentyabrın sonlarına doğru bazar insanla dolub-daşacaq.

ƏN BAHALI BALIQLAR

Satıcının fikrincə, qiymətlər sabit qalsa da, tək qiyməti oynayan ziyad balığıdır. Bəzən 15 manat olur, bəzən də 10 manat: "Bir də ziyad qədər bahalı xəşəm balığıdır. Onların da kiloqramı 15 manatdır. Ən bahalı balıqlar isə bölgə və qızıl balıqdır. Bu balıqlar İrandan gəlir. Məsələn, qızıl balıq 30 manatdır. İrandan gələn bölgə isə 35-38 manata satılır".

Təranə xanım deyir ki, qabdakı göl balıqlarına da artıq tələbat artıb. Çünki saxlanma şəraitləri daha yaxşılaşıb: "Əvvəl göl balığının dadı pis olurdu. Çünki balaca yerdə göl yaradıb yetişdirirdilər. Ona görə balığın əti palçıq dadı verirdi, suyu dəyişdirilmirdi. İndi Kür çayının qarşısını kəsirlər, hasara alırlar, çay suyu axır, orada təbii şəkildə balıqlar yaşayır. Hazırda göldə saxlanılan balıqların ərazisi genişdir. Həmçinin, axar su olduğu üçün daha təmizdir. Amma göl balıqları gec-gec gəlir. Hava isti olduqda yolda ölürlər. Ona görə çəlləkdə hava verilərək gətirilir. Amma dəniz balıqları qutuda, buzun içində ölü halda gəlir. Göl balığını ölü halda gətirsələr, yağlı olduğu üçün daha tez xarab olar".

Budur, bir müştəri Təranə xanıma yaxınlaşır. Biz də yaxınlaşıb alıcı Cavidlə söhbətləşirik. Danışığından hiss olunur ki, balıqdan çox yaxşı başı çıxır. Deyir ki, yayda alınmayan ağ balıqdır. Zəhərlənməyə səbəb olduğu üçün insanlar qorxur: "Çox vaxt çəki balığı alıram. Çünki həm qızarmağa yaxşıdır, həm ləvəngiyə".

AĞ DƏNİZ BALIĞININ KİLOQRAMI 100 MANATDIR

Alıcının fikrincə, dəniz balığı daha dadlıdır: "Ağ dəniz balığının kiloqramı 100 manatdan aşağı deyil. Amma bu bazarda göl balığıdır, ona görə qiyməti 35 manatdır. Mən isə daha çox dəniz balığı alıram. Çünki göl balığını bilmək olmur. Kür balığı yaxşıdır, amma kanalda olan yox. Bu yaxınlarda Mahaçqala çəkisi aldım, amma onlar bizim balıqların dadını vermir. Ölkəmizdə Xəzər dənizi dərin olduğu üçün balıqlar rahat yaşayır, amma üzü şimala doğru hövzə dayaz olur. O zaman balıqlar qamışlıqda palçıq yeyir. Ona görə dadları yaxşı deyil".

Cavid bəylə söhbət edə-edə bir də baxırıq ki, Təranə xanım artıq balıqları yuyub, təmizləyib, hazır edib.

METRODA GÜZƏŞTLƏR TƏTBİQ EDİLƏCƏK?

Metrodan istifadə edən paytaxt sakinlərinin sayı hər il artmaqdadır. Bu artımla yanaşı, metropoliten sistemində müxtəlif yeniliklər də tətbiq olunur. Bu yeniliklərdən razı qalanlar da var, narazı olanlar da. Sərnişin məmnunluğunun təmin edilməsi üçün ekspertlər bir sıra təkliflər irəli sürürlər.

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Ötən həftə "Bakı Metropoliteni"i pilot layihə kimi QR ödəniş üsulunun tətbiqinə başlanıldığını bildirdi. Belə ki, bənövşəyi xəttin "Xocəsən" və "8 Noyabr" stansiyalarında sərnişinlər "BakıKart" plastik kartından savayı, "BakıKart" mobil tətbiqinin QR biletlərindən də istifadə edə bilərlər. Bu üsul kartsız, həmçinin, elektron cihazlar üzərindən ödəmə üsullarını genişləndirməyə imkan verir.

Elektron ödəmə üsulundan əlavə, dünyanın bir çox ölkələrində metro ilə bağlı müsbət təcrübələr var ki, onlar bizdə hələ ki, tətbiq olunmur. Məsələn, bir çox ölkələrdə gedişhaqqı birdəfəlik ödənildikdə, endirim tətbiq edilir. Yaxud, aylıq abunə olduqda, bir gedişin dəyəri daha ucuz başa gəlir. İnkişaf etmiş ölkələrdə gedişhaqqı məsafəyə görə hesablanır. Bir sıra ölkələrin metrosunda isə bir saat ərzində metrodan ikinci dəfə istifadə edən sərnişin üçün gedişhaqqı yarıya qədər endirilir. Türkiyədə isə tələbələrə müəyyən güzəştlər tətbiq olunur. Bəs bu kimi güzəştləri ölkəmizdə tətbiq etmək mümkündürmü? Ümumiyyətlə, "Bakı Metropoliteni" hansı yeniliklərin tətbiqinə çalışır?

Bəxtiyar Məmmədov

"ÖDƏNİŞ SİSTEMİNDƏ YENİLİKLƏR OLACAQ"

"Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov qəzetimizə açıqlamasında bildirdi ki, son illərdə inteqrasiya olunmuş ödəniş sistemlərinin tətbiqi baxımından əhəmiyyətli işlər görülüb: "2015-ci ilin avqust ayının 8-dən başlayaraq "Bakı Metropoliteni"ndə vahid ödəniş kartları tətbiq edilir. QR bilet sistemi isə bunun növbəti mərhələsi idi. Növbəti illərdə də bu fəaliyyətdə yeniliklərin olması gözlənilir".

SƏLAHİYYƏTLİ QURUMLAR TƏRƏFİNDƏN QƏRAR VERİLƏRSƏ...

Metroda güzəşt məsələsinə gəldikdə isə, qurum rəsmisi deyir ki, bu, "Bakı Metropoliteni"nin səlahiyyətində olan məsələ deyil: "Metropoliten bu mənada icra edən və qəbul edilmiş qərarları həyata keçirən qurumdur. Qeyd etdiyiniz məsələlərlə bağlı səlahiyyətli qurumlar tərəfindən hər hansı qərarlar verirlərsə, təbii ki, qanunvericilik və normativ tələblərə uyğun olaraq, birmənalı şəkildə icra ediləcək".

TƏLƏBƏLƏR ÜÇÜN ENDİRİM KARTLARI

Təhsil eksperti Qoşqar Məhərrəmov isə deyir ki, tələbələrə mütləq endirim edilməlidir: "Tələbələrə, xüsusilə də Avropada, Türkiyədə endirimlər şamil olunur. Tələbə ona təqdim olunan endirim kartlarını bir dəfə doldurur və metrodan daha aşağı qiymətə istifadə edir. Yaxud ay ərzində müəyyən qiymət müəyyənləşdirib, tələbəyə limitsiz istifadə etmək imkanı da yaradıla bilər. Ehtiyac içində olan, işləməyə məcbur qalan tələbələr çoxdur".

Qoşqar Məhərrəmov

GÜZƏŞT GÖZLƏMƏK DÜZGÜN DEYİL

İqtisadçı ekspert Xalid Kərimli deyir ki, metroda ən ucuz qiymət Azərbaycandadır: "Dünya ölkələrindəki güzəştdən danışırıqsa, onların tətbiq etdiyi qiymətləri də nəzərə almalıyıq. Düzdür, burada əməkhaqqı məsələsi də var. Amma metronun xərclərinə baxsaq, qiymətlərin xərclərə nisbətdə ucuz olduğunu görərik. "Bakı Metropoliteni" QSC zaman-zaman zərərlə işlədiyini elan edir. İnfrastrukturun saxlanılmasına sərf olunan vəsait çoxdur. Məsələn, gedişhaqqının maya dəyəri bir manat 50 qəpikdir, biz 40 qəpik ödəyirik. Qalan pulu dövlət ödəyir. Dövlət burada onsuz da hamıya güzəşt edir. Buna görə də indiki halda əlavə güzəştlər gözləmək düzgün deyil".

GEDİŞ HAQQI BİR MANAT 50 QƏPİK OLARSA...

İqtisadçı deyir ki, biz güzəştlərdən o vaxt danışa bilərik ki, gedişhaqqı metronun saxlanılmasına, istifadəsinə sərf olunan xərcləri ödəsin: "Bütün dünyada şirkətlər yaxşı müştərilərinə güzəşt edirlər. "Metropoliten"də yaxşı müştəri daim metro xidmətlərindən istifadə edən şəxsdir. Dünyada müəyyən mexanizmlər var ki, bəli, biz də tətbiq edə bilərik. Məsələn, metro xidmətlərindən tez-tez istifadə edən şəxslər üçün həftəlik, aylıq, illik kartlar tətbiq edilə və onların xüsusi ödəmə formaları ola bilər. Lakin belə halda güzəştli istifadə edənlərə endirim olacaq, digərlərində qiymət bahalaşacaq. Çünki indiki qiymətlər hamı üçün güzəştlidir. Məsələn, bizdə də metroda bir gediş bir manat 50 qəpik olarsa, güzəştli kateqoriyalar müəyyənləşər və 2-3 qat ucuz qiymətlər tətbiq edilə bilər".

Kaspi ÜÇ ƏSRİN QƏZETİ
Təsisçi
Global Media Group
Baş redaktor
İlham Quliyev
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rufik İsmayılov, Xanım Aydın, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət, Aysel Aslan, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli
Yayım və satış meneceri
Vadim Manafov
Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 2380
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

YOLLARI ZƏBT EDƏN TİKİNTİ ŞİRKƏTLƏRİ

Bakıda piyada səkiləri ilə yanaşı, artıq bəzi yolların da tikinti şirkətləri tərəfindən zəbt olunub ləğv edilməsi hallarına rastlaşırıq. Bu cür vəziyyət avtomobillərin hərəkət sıxlığını bir az da qəlizləşdirir. Rəsmi struktur isə çətinliyin müvəqqəti olduğunu vurğulamaqla kifayətlənir.

RUFİK İSMAYILOV

Bakı şəhərində çoxmərtəbəli binalar inşa edən tikinti şirkətləri bir sıra hallarda piyada səkilərini zəbt edir, insanların sərbəst hərəkətinə mane olurlar. Bu barədə "Kaspi" qəzetinin əvvəlki nömrələrində geniş bəhs etmişdik. Bu dəfə isə, mənzil tikinti kooperativləri tərəfindən sadəcə piyada səkilərinin deyil, birbaşa avtomobil yolunun, küçənin zəbt olunması məsələsinə diqqət çəkmək istəyirik.

Fotolardan da göründüyü kimi, paytaxtın Nəsimi rayonu ərazisində Mərdanov qardaşları-Şamil Əzizbəyov küçələrinin kəsişməsindən Mərdanov qardaşları-Süleyman Rəhimov küçələrinin kəsişməsinə qədər olan avtomobil yolu tamamilə zəbt olunub. 44 saylı tam orta məktəb ilə Bakı Şəhər Baş Polis İdarəsinin vaxtilə burada mövcud olmuş inzibati binasının qarşısından keçən bu yol Mərdanov qardaşları küçəsini birbaşa Süleyman Rəhimov və Füzuli küçələrinə birləşdirirdi. Nəqliyyat vasitələri ikizolaqlı bu yol ilə indiki Füzuli küçəsinə, yaxud əks istiqamətdə keçmiş "Təzə bazar"a və "Kubinka" məhəlləsinə doğru hərəkət edə bilirdilər.

AVTOMOBİL YOLUNA GİRİŞ-ÇIXIŞ MƏHDUDLAŞDIRILIB

90-cı illərdə Mərdanov qardaşları-Şamil Əzizbəyov küçələrinin kəsişməsindən Mərdanov qardaşları-Süleyman Rəhimov küçələrinin kəsişməsinə qədər olan avtomobil yolu ilə hərəkət Bakı Şəhər Baş Polis İdarəsinin mühafizəsi məqsədilə qismən məhdudlaşdırılmış, ardınca dəmir məhəccərə alınmışdı. O zaman bu, başadüşülən idi. Amma bu polis idarəsi 2010-2020-ci illər arasında Yusif Səfərov küçəsi 45 ünvanında yeni inzibati binaya köçürüldükdən sonra köhnə binanı söküb yerində çoxmərtəbəli bina inşa edən şirkət yolu birdəfəlik zəbt edib. Mərdanov qardaşları-Şamil Əzizbəyov və Mərdanov qardaşları-Süleyman Rəhimov küçələrinin kəsişməsindən avtomobil yoluna giriş-çıxış qeyri-mümkündür. Tikinti şirkəti binanın və 44 saylı orta məktəbin qarşısından keçən yolu məqsədli şəkildə, təxminən 50-60 santimetr hündürləşdirib, həm pilləkənlər, həm də şlaqbaum qoyaraq ərazidə nəqliyyat vasitələrinin hərəkətini mümkünsüz edib.

VƏTƏNDAŞLAR NARAZIDIR

Nəsimi rayonunun Rəsul Rza küçəsində avtomobil yolunun Rəsul Rza-Salatın Əsgərova kəsişməsindən Rəsul Rza-Şamil Əzizbəyov kəsişməsinə qədər olan yüz metrlik hissəsi də tikinti şirkəti tərəfindən hasarlanıb. Təxminən beş ildir ki, Əlibəy Hüseynzadə küçəsindən başlamaqla Rəsul Rza küçəsi ilə Füzuli küçəsinə doğru düzünə hərəkət edən nəqliyyat vasitələri Salatın Əsgərova küçəsi ilə kəsişməyə çatanda məcburən sola dönür, istiqamətlərini dəyişməli olurlar. Çünki, mənzil tikinti kooperativi burada yolu tamamilə bağlayıb. İctimai maraqları bəzi hallarda görməzdən gələn belə tikinti şirkətlərinin özfəaliyyəti vətəndaşlarda ciddi narazılıq yaradır.

BİR CÜMLƏLİK CAVAB

Nəsimi Rayon İcra Hakimiyyətinə də sorğu göndərib həm problemi diqqətlərinə çatdırdıq, həm də münasibətlərini öyrənmək istədik. İcra Hakimiyyətinin rəsmi cavabı bu oldu ki, "Ərazidəki tikinti müvəqqətidir".

YOLLARDA QABAQCIL XARİCİ TƏCRÜBƏNİ TƏTBİQ ETMƏK OLAR

Mövzu ilə bağlı fikirlərini "Kaspi" qəzetinə bölüşən nəqliyyat məsələləri üzrə ekspert Rauf Ağamirzəyev bildirib ki, istənilən halda küçələrin zəbt olunması yaxşı hal deyil. O, bunun qanunsuz olduğunu vurğulayıb: "Qeyd olunan küçələrə giriş-çıxışı birdəfəlik məhdudlaşdırmaq əvəzinə, orada ortaq küçə prinsipi ilə fərqli planlama ola bilərdi. İnkişaf etmiş xarici ölkələrdə bu təcrübəyə tez-tez rast gəlmək mümkündür. Bu qabaqcıl təcrübələrdə daha çox piyadayönümlü həll yollarına üstünlük verirlər. Həmin yol ilə nəqliyyat vasitələrinin hərəkətini tamamilə məhdudlaşdırmırlar, amma orada hərəkətdə olan avtomobil sürücüsü məkanın piyadayönümlü olduğunu hiss edir, ehtiyatlı davranır, təhlükəsizliyə ciddi riayət edir. Bakı şəhərinin Mərdanov qardaşları, Rəsul Rza küçələrində bəhs edilən yollarda da qabaqcıl xarici təcrübəni tətbiq etmək olar".

Rauf Ağamirzəyev

MƏSULİYYƏT TİKİNTİ ŞİRKƏTLƏRİNİN ÜZƏRİNDƏDİR

Ekspert bildirib ki, əgər ərazidə yaşayış varsa, piyadaların daha çox hərəkəti nəzərdə tutulubsa, avtomobillərin oraya giriş-çıxışını məhdudlaşdıran deyil, onların hərəkət sürətini azaldan həllər tətbiq edilməlidir: "Bunun üçün yolun örtüyünü fərqli etmək və digər metodlardan yararlanmaq olar. Amma Mərdanov qardaşlarında həm yol hündürləşdirilib, həm də şlaqbaum və pilləkən qoyulmaqla giriş-çıxış dayandırılıb. Bu, qanunsuzluqdur. Küçənin ortasına şlaqbaum qoymaq heç bir məntiqə sığmır. Əgər paytaxtda hər hansı küçə hansısa səbəbdən bağlanırsa, bununla bağlı əsaslı səbəblər olmalı, Bakı Şəhər İcra Hakimiyyəti, müvafiq dövlət qurumları ictimaiyyətə rəsmi məlumat verməlidir. Yolun bağlanmasına görə bütün məsuliyyət o yolu bağlayan tikinti şirkətlərinin üzərindədir. Bu addım əhali və nəqliyyat sıxlığından əziyyət çəkən Bakı şəhərinin mövcud durumunu bir qədər də çətinləşdirməyə xidmət edir".

KOMPÜTER VAR, BƏS MÜƏLLİM?



Elm və təhsil naziri Emin Əmrullayev bu günlərdə bildirib ki, yaxın üç il ərzində Azərbaycan məktəblərinə 150 min kompüter veriləcək, son nəticədə hər altı şagirdə bir kompüter düşəcək.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Ölkə məktəblərinin müxtəlif proqramlar çərçivəsində kompüter avadanlığı ilə təchiz edilməsi prosesi artıq bir neçə ildir davam edir. Yeni nəsil texniki vasitələr hazırda tədris prosesinə fəal şəkildə daxil olur.

Elm və təhsil naziri Emin Əmrullayev bu günlərdə bildirib ki, yaxın 3 il ərzində Azərbaycan məktəblərinə 150 min kompüter veriləcək, son nəticədə hər altı şagirdə bir kompüter düşəcək.

Maraqlıdır, nazirin qeyd etdiyi kimi, rəqəmsallaşma sahəsində bundan sonra məzmun baxımından görüləcək işlərə məktəb mühiti, uşaqların qavrayış səviyyəsi, öyrənmə bacarıqları və ən başlıcası, ixtisas müəllimlərinin bilgiləri adekvatdırmı? Rəqəmsallıqdan istifadənin digər müəllimlər arasındakı təbliği hansı səviyyədədir?

Ekspertlərin fikirləri bu istiqamətdə o qədər də haçalanmır, amma problem yaradacaq nüanslar da yox deyil.

40-50 KOMPÜTER OLAN SİNİF OTAQLARI

Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü Rüfət Əsədzadənın fikrincə, rəqəmsallıq ilk növbədə dərsdə interaktivliyi təmin etməyə imkan verir: “Hazırda müəyyən tədris alətləri var ki, onların vasitəsilə əyləncəli dərsləri təşkil etmək olur. Məktəblərin kompüterləşməsi bu baxımdan böyük əhəmiyyət daşıyır. Bir çox məktəblərimiz də bu prosesə hazırdır. Yeni yetişən müəllimlərin çoxunun kompüter bilikləri kifayət qədər yaxşıdır və onlar rəqəmsallığı təmin edə bilirlər. Belə bilgilər nə qədər çox olsa, uşaqların da o qədər rəqəmsal alətlərdən düzgün istifadəsinə gətirib çıxaracaq. Eyni zamanda, rəqəmsal vətəndaşlığın təşviqi istiqamətində dünyada, o cümlədən ölkəmizdə də bır sıra addımlar atılır. Bu da şagirdlərin rəqəmsal istiqamətdə yetişməsində böyük rol oynayacaq”. Ekspert hər şagirdə bir kompüterin düşəcəyi günün gələcəyinə də ümidlidir: “Mən oxuduğum dövrdə məktəblərdə 1-2 kompüter vardı. İndi məktəblərin böyük əksəriyyətində 40-50 kompüter olan otaqlar var. Yəqin ki, bir müddət sonra ya məktəb özü bunu təmin edəcək, ya da dövlətin bu istiqamətdə sosial layihələri olacaq. Ailələrin özlərinin də artıq bu alətlərə çıxışı yaranacaq”.

Rüfət Əsədzadə

İNFORMATİKA MÜƏLLİMLƏRİNİN SƏVİYYƏSİ YETƏRLİDİR?

R.Əsədzadə rəqəmsal məzmuna müəllimlərin bilgisinin adekvat olub-olmamasına da münasibət bildirdi: “Bizdə adətən “rəqəmsallıq” anlayışı düzgün qarşılanmır. Rəqəmsallıq tək informatika müəllimləri ilə bağlı deyil. İnformatika bir peşə, ixtisasdır. Bizim informatika müəllimləri son 5-6 ildə təkmilləşməyə başlayıblar. Bunun da səbəbi informatikaya ehtiyacın yaranması ilə bağlıdır. Əvvəllər informatika və ya riyaziyyat-informatika seçimi olanda sadəcə riyaziyyatı seçirdilər. İndi əksinədir, daha çox informatikanı seçməyə başlayıblar. Bu o deməkdir ki, informatika müəllimləri təkmilləşir. Rəqəmsallıqdan istifadənin digər müəllimlər arasındakı təbliği təbii ki, zamanla inkişaf edir. Ancaq rəqəmsal inkişaf digər sahələrdən daha sürətli inkişaf etdiyinə görə, ona çatmaq üçün daim təkmilləşmək lazımdır. Məsələn, Google şirkəti müəllimlər üçün “birinci səviyyə öyrədənlər” adlı bir proqram həyata keçirir. Proqramı başa vuranlara sertifikat üç illik verilir. Buna görə də, müəllimlərin davamlı olaraq özlərini inkişaf etdirmələri vacibdir”.

Nemət Tarverdiyev

DÖVRÜN TƏLƏBİNƏ TAM UYĞUN DEYİLİK

Astara rayon Deqədi kənd ümumi orta məktəbinin informatika müəllimi Nemət Tarverdiyev rayon məktəblərinin də tədricən kompüterləşdiyini bildirdi: “Artıq bizim məktəbə və qonşu məktəblərə də bir neçə kompüter verilib. Bu, ilk növbədə şagirdlərin informasiya axtarışı üçün vacibdir. Xüsusən, kənd məktəbində bəzən uşaqların mobil telefonu olmur və onlar lazımı məlumatları axtara bilmirlər. Kompüterin olması onlara informasiyanı düzgün axtarmağı öyrədir. Məktəblər də internetləşməni sürətləndiriblər. Qonşu məktəblərə fiber optik kabel çəkilir”. N.Tarverdiyev rəqəmsallaşma ilə ayaqlaşmaq üçün informatika müəllimlərinin bilgilərinin bir qədər aşağı olduğunu etiraf edir: “Bunu özümdə də hiss edirəm. Dövrün tələbinə tam uyğun deyilik. Düzdür, nazirlik tərəfindən müəllimlərin İKT bacarıqlarının artırılması üçün təlimlər keçirilir, bu istiqamətdə ciddi layihələr təşkil olunur. Təcrübəli müəllimlər də az deyil, sadəcə, bu sahə bizdə yenidir”.

“BƏZİ VALİDEYNLƏRİN KOMPÜTER ALMAQ İMKANI YOXDUR”

İKT üzrə ekspert Tural Mustafayev hesab edir ki, məktəblərin kompüterləşməsi şagirdlərin praktik biliklərinin artmasına müsbət təsir göstərəcək. Belə ki, Elm və Təhsil Nazirliyində İKT üzrə həyata keçirilən STEAM, Robotiks, Scratch, mobil proqramlaşdırma və alqoritm qurulması kimi yeni layihələr aktiv biliklər tələb edir: “Müəllim bu sahələr üzrə dərsi keçəndən sonra şagirdi mütləq şəkildə test etməlidir. Müəyyən valideynlərin övladları üçün kompüter almaq və onların praktiki biliklərini yoxlamaq imkanı var. Amma bəzi valideynlərin belə imkanı yoxdur. Bu baxımdan, kompüterləşmə şagirdlərə müsbət təsirini göstərəcək”. Ekspertin fikrincə, altı şagirdə bir kompüterin düşməsi vəziyyəti keçən illərə nisbətən yaxşılaşdıracaq, amma uşaq sayı çox olan siniflərdə problem yaradacaq: “45 dəqiqə ərzində müəllim həm yeni dərsi izah etməli, həm köhnə tapşırığı yoxlamalıdır. Şagirdlər də növbə ilə tapşırığı etməlidir. Mütləq şəkildə hər dərsdə hər bir şagirdin qarşısında bir kompüter olmalıdır ki, onlar dərs vaxtından faydalı istifadə etsinlər və informatika dərsindən nəsə əldə etmiş olsunlar. Gələcəkdə də hansısa şagird inkişaf edib özünü İKT sahəsində görürsə, bu, onun inkişafına təkan verəcək”.

Tural Mustafayev

YERLİ MAKARON istehsalı niyə azalır?

Makaron bərk taxıldan hazırlanır. Azərbaycan isə bu taxılı Rusiya, Ukrayna, Belarus və Qazaxıstandan alırdı. Müharibə ilə əlaqədar taxıl alışında problemlər yaranıb. Bu da ölkədə makaronun istehsalına təsir edib. İstehsalçılar makaronun maya dəyərini azaltmaq üçün bərk taxılın faizini azaldırlar.

ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

İtaliya mətbəxinin əsas yeməyi hesab olunur. İlk dəfə 1154-cü ildə Siciliyada ortaya çıxıb. Əsasən su və yumurtadan yoğrulmuş buğda unu xəmirinin qurudulmasından hazırlanır. Yəqin çoxunuz təxmin etdiniz söhbət hansı yeməkdən gedir. Makarondan danışırıq.

Makaron bizim ölkəmizdə daha çox tələbə yeməyi kimi tanınır. Hazırlanması asan və rahat, qiyməti ucuz olduğu üçün alıcısı da boldur. Son məlumatlara görə ölkəmizdə bu məhsulun istehsalı 25 faiz azalıb. Bəs görəsən azalmanın səbəbi nədir? İstehsalın azalması əsasən kasıb və orta təbəqənin istifadə etdiyi makaronu bahalaşdıra bilərmi?

QİYMƏTLƏRƏ TƏSİR GÖSTƏRMƏYƏCƏK

İqtisadçı Xalid Kərimlinin fikrincə, yerli mallar idxal məhsulları ilə rəqabət apara bilmir deyə, istehsalın azalması normal qarşılanmalıdır: "Makaron istehsalının azalmasının səbəbi rəqabətdir. Amma bunun iqtisadiyyatımıza, bazarımıza heç bir təsiri olmayacaq. Çünki makaron bazarında idxal yerli istehsalı sıxışdırır. İdxal yerli istehsalı sıxışdıranda daha ucuz imkanlar meydana gəlir. Bu zaman da, yerli istehsal idxal qiymətləri ilə mübarizə apara bilmir. Ölkəmizə makaron idxalı əsasən qonşu dövlətlərdən - İrandan, Türkiyədən, Rusiyadandır. Yerli istehsalçılar da o keyfiyyətlə, o qiymətlərlə məhsul təqdim edə bilmədiklərinə görə bazar paylarını itirir-lər".

Xalid Kərimli

X.Kərimli dedi ki, istehsalın azalması qiymətlərə təsir göstərməyəcək: "Burada vətəndaş, alıcı üçün qorxulu bir şey yoxdur. Makaron bazarında yerli məhsulumuzdan çox xarici məhsul mövcuddur. Azərbaycanın makaron istehsalçıları rəqabətə dözə bilməyib istehsalı azaldır. Sadəcə, istehsal edən müəssisənin qazancı azalacaq, sonra da işi apara bilməyəcək, yerli istehsalı bağlayıb çıxıb gedəcək. Yerli makaron istehsalının azalması qiymətlərə də təsir etməyəcək".

XARİCDƏN ASILILIQ AZALDILMALIDIR

İqtisadçı Akif Nəsirlinin fikrincə, istənilən halda yerli istehsalı artırmaq və xaricdən asılılığı azaltmaq lazımdır: "Amma təəssüf ki, idxal sahibkar üçün daha səmərəli görünür. Bütün sahələrdə, o cümlədən makaronla bağlı yerli istehsaldan çox idxala üstünlük verirlər. Bu isə ölkənin ərzaq təhlükəsizliyini təhdid altında qoyur. Makaron un məhsuludur. İstənilən ölkənin daxilində yerli tələbat qədər istehsal etmək mümkündür. Hökumət bu cür sahələrin inkişaf etdirilməsinə, idxalının azalmasına çalışmalıdır".

İSTEHSALÇILAR PROBLEM OLMADIĞINI DEYİRLƏR

Makaron istehsalçısı olan şirkətlərdən sorğumuza cavab olaraq bildirildi ki, hazırda onların istehsal prosesində problem yoxdur: "İstehsal prosesinin azalması barədə dəqiq məlumat yoxdur. Lakin makaron istehlakı yay aylarında daha az olur. Hazırda makaron fabrikinin aylıq istehsal gücü 3200 tondur. Fabrik 11 fərqli çeşiddə qısadoğranmış makaron və 2 çeşiddə spagetti istehsal etmək gücünə malikdir. İstehsal prosesində heç bir çətinlik müşahidə olunmur. Makaron və spagetti çeşidlərimizin istehsalında dünyanın müxtəlif ölkələrindən alınmış sərt buğdadan istifadə edilir".

QONŞU ÖLKƏLƏRDƏN TAXIL ALIŞINDA PROBLEMLƏR YARANIB

İstehsal meneceri Sayat Quliyeva isə düşünür ki, yerli makaron istehsalının azalmasının əsas səbəblərindən biri buğdadır: "Makaron bişirildiyi zaman dağılmasın deyə bərk taxıldan hazırlanır. Azərbaycan isə bu taxılı Rusiya, Ukrayna, Belarus və Qazaxıstandan alırdı. Müharibə ilə bağlı taxıl alışında problemlər yaranıb. Bu da makaronun istehsalına təsir edib. İstehsalçılar makaronun maya dəyərini azaltmaq üçün bərk taxılın faizini azaldırlar. İstehlakçı olaraq vitrinə baxanda yerli istehsal olan makaronların keyfiyyətini rəngindən görmək olur. Görünür ki, bərk taxıldan az istifadə olunur".

FƏRQLİ MAKARON ÇEŞİDLƏRİ HAZIRLAMAQ LAZIMDIR

Qida məsələləri üzrə ekspert Ağa Salamovun fikrincə, yerli istehsalın önə keçməsi üçün makaron çeşidlərində fərqlilik lazımdır: "Əgər müasir zəmanənin tələblərinə uyğun makaron istehsal olunsa, bu halda yerli mallarımız xarici məhsullar tərəfindən sıxışdırılmaz. Türkiyədə xarici markaları vurub sıradan çıxarırlar və onlardan da yaxşı məhsul təqdim edirlər. Amma bizdə yerli istehsalda inkişaf yoxdur. Fərqli makaron çeşidləri hazırlamaq, qablaşdırmaya diqqət etmək lazımdır".

Ağa Salamov

MƏHƏBBƏTİ ƏFSANƏYƏ ÇEVİRƏN BƏSTƏKAR

Arif Məlikov tək simfonik əsər yazmayıb. Onun üç baleti var, 40-a yaxın filmə, tamaşalara musiqi yazıb. 27 cilddən ibarət külliyyatı Prezidentin sərəncamı ilə çap olunub.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Mənim baletim dünyanın 64 teatrında tamaşaya qoyulub", - deyə qürurla söyləyə bilən yeganə müasir bəstəkar idi Arif Məlikov. 1961-ci ildən bəri onun "Məhəbbət əfsanəsi" baleti dünya səhnələrini dolaşıb. Nəhayət, yarım əsrdən çox fasilədən sonra dünya klassik musiqisinin bu şah əsəri Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Bakı səhnəsinə qayıdır. Sentyabrın 18-i və 19-da Heydər Əliyev Sarayında "Məhəbbət əfsanəsi" baletinin təqdimatı Milli Musiqi Günündə əsl bayram əhval-ruhiyyəsi yaşatmaqla bərabər, müəllifinin 90 illik yubileyinə (sentyabrın 13-ü Arif Məlikovun doğum günüdür) layiqli töhfə olacaq.

O İNSANLAR HAMISI GETDİ...

"Arif Məlikovla bağlı o qədər xatirələrimiz var ki... Hansını danışaq?", - deyə sənət yoldaşları tarixi təqdimata sevinərək görkəmli bəstəkarı məhəbbətlə anırlar.

Əməkdar İncəsənət xadimi, professor Məmmədağa Umudov xatırlayır: "Arif Məlikovun ən yaxın həmkarı və ailə dostlarından olmuşam. Mən Konservatoriyaya daxil olanda Soltan Hacıbəyovun sinfində oxuyurdum. Bir ay sonra o, dünyasını dəyişdi. Məni Arif Məlikovun sinfinə göndərdilər. Bir neçə gün dərsə getmədim. Dərsə ilk dəfə gələndə "Nə üçün gəlməmisən, get, prorektordan icazə al, yoxsa auditoriyaya buraxmayacağam", - deyə bildirdi. Bu hadisə mənə dərs oldu. Ondan sonra bircə gün də dərs buraxmadım. Sonradan dostlaşdıq, hətta ailəvi dost olduq. Birlikdə çox qastrollara çıxmışıq".

BƏSTƏKARLIQ MƏKTƏBİNİN SONUNCU MOGİKANI

Bəstəkar xatırlayır ki, Arif Məlikovun "İki qəlbin dastanı" baleti Daşkənddə nümayiş olunanda onu da dəvət edib: "Maestro Niyazi ilə getmişdik. Birlikdə o qədər şəkillərimiz var ki... 50 illik yubileyini də "Moskva" hotelində qeyd elədik. Mən, Niyazi, Arif Məlikov - birlikdə şəkil çəkdirdik. Onun ad günlərini hər il adətən Nardarandakı bağında qeyd edərdik. Rəhmətlik Adil Bəbirov, Ramiz Mirişli və digər sənət adamları və ziyalılar gələrdi. O dövr Azərbaycan bəstəkarlıq məktəbinin qızıl dövrü idi. Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Rəşid Behbudov, Cövdət Hacıyev, Tofiq Quliyev vardı. Heyf ki, o insanlar hamısı getdi. Arif müəllimi sonuncu mogikan adlandırmaq olar. O gedəndən sonra bizim bəstəkarlıq məktəbi yetimləşdi".

M.Umudov müəlliminin şöhrəti dünyanı dolaşan "Məhəbbət əfsanəsi"ni qürur hissi ilə xatırlayır: "Tək SSRİ miqyasında yox, həm də dünyada "Böyük teatr" truppası birinci truppa sayılır. Bu truppanın repertuarında Azərbaycan bəstəkarlarının əsərlərindən daimi qalan Arif Məlikovun "Məhəbbət əfsanəsi" idi. Baletin xoreoqrafı Yuri Qriqoroviç məhz bu baleti Sankt-Peterburqun "Mariinski" Teatrında səhnələş-dirəndən sonra populyarlaşdı və onu "Böyük Teatr"a baş baletmeyster gətirdilər. Bu əsərdə kimlər yox idi: Nazim Hikmət, Niyazi, Arif Məlikov, Virsaladzenin rəssamlıq tərtibatı, musiqi və rəqslərin harmoniyası... Ancaq Arif Məlikov narazı idi. O, baletinin Azərbaycan truppası tərəfindən qoyulmasını istəyirdi. Sağlığında Sverdlovsk, Mariinski teatrları Bakıya qastrola gələrək baleti nümayiş etdirmişdilər. Təəssüf ki, bizim truppa tərəfindən səhnəyə qoyulmadı".

ARİF MÜƏLLİMİN ƏLİ NƏYƏ TOXUNUBSA...

"Konser-vatoriyanın bəstəkarlıq fakültəsinə daxil olanda Arif Məlikov "orkestrovka" üzrə mənim müəllimim oldu", - deyə Xalq artisti Faiq Sücəddinov xatırlayır: "Sonra Estrada Simfonik Orkestrinin bədii rəhbəri kimi çalışanda onun "Dağlar" mahnısını aranjeman etdim. Mahnını Akif İslamzadə oxuyurdu. Əsərlərini pianoda çalmaq üçün mənə tez-tez müraciət edirdi. Sonradan Arif müəllimin bir neçə mahnısını aranjeman etdim. Bizim yaxın ünsiyyətimiz vardı. Musiqi ilə bağlı qızğın müzakirələrimiz olurdu". F.Sücəddinov müəlliminin kino və tamaşalar üçün yazdığı musiqiləri yüksək sənət inciləri kimi dəyərləndirir: "26 Bakı komissarı"na yazdığı musiqi möhtəşəm idi. Ümumiyyətlə, Arif müəllimin bu səpkili musiqiləri əsl sənət əsərləridir. Onun "Məhəbbət əfsanəsi" baleti isə bütün dünyada populyar idi. Elə tək bu əsər müəllifi haqqında hər şeyi deyir".

BƏZƏN DEYİRDİLƏR Kİ, XASİYYƏTİ AĞIRDIR...

"Tələbə vaxtı Arif müəllimin assistenti, sonra aspirantı olmuşam. Baş müəllim, dosent, professor vəzifəsinə qədər yüksəlmişəm. 30 ilə yaxın bəstəkarlıq sinfində birgə çalışmışıq", - deyə Musiqi Akademiyasının bəstəkarlıq kafedrasının professoru Ceyhun Abdullayev xatırlayır: "Arif müəllimlə bir dəfə ünsiyyətdə olan insan nə qədər enerji alır və bu onun üçün həyatda unudulmaz gün olur. Təsəvvür edin ki, bizim 30 il müddətində nə qədər xatirələrimiz var. Onun kimi dünyada ikinci bəstəkar tapmaq çətindir. Çünki elə bir bəstəkar yoxdur ki, hələ sağlığında yazdığı balet dünyanın aparıcı ölkələrinin səhnəsində oynansın. Bu, bizim üçün böyük qürur mənbəyidir. Arif müəllim Qara Qarayevdən dərs almışdı. Qara Qarayevin müəllimi Şostakoviç, onun müəllimi Lev Şteynberq olub. Bu ənənə Bethovenə qədər gedib çıxır. Bizim bəstəkarlıq məktəbinin böyüklüyü də ondadır - həm Şərq, həm də Qərb mədəniyyətinin köklərinə bağlıdır". C.Abdullayev deyir ki, Arif Məlikovla tək tələbə-müəllim yox, həm də ata-oğul, sirdaş olublar: "Arif müəllim mənəviyyatsız, çirkablı insanları yaxına buraxmırdı. Bəzən deyirdilər ki, onun xasiyyəti ağırdır. Amma elə deyildi, o insanlıqda da, müəllimlikdə də təmiz idi. O həm də sözünü deyə bilən bir qəhrəman idi. 20 Yanvar hadisələrində Qorbaçova cəsarətlə "Sizin əliniz mənim millətimin qanına batıb" deyə bildi. Sonra o, DTX-nın arxivindən əldə etdiyi sənədlər əsasında "Mən ittiham edirəm" adlı sənədli kitab yazdı. 75 illiyində onun rəsm sərgisi də keçirilmişdi. Həmin illər musiqi yazmırdı. "Xalqıma, millətimə xidmət edirəm" deyirdi. Arif müəllim həm də yaxşı rəssam idi. 20 Yanvarla bağlı çəkdiyi rəsm əsərində qan damcıları süzülən ürək çəkmişdi. Onun hisslərinə nə yaxın idisə, onu sənəti ilə göstərməyə çalışırdı".

C.Abdullayevin fikrincə, Arif Məlikov kimi sənətkarları tək yubileydən-yubileyə deyil, tez-tez xatırlamaq lazımdır.

Məmmədağa Umudov — Faiq Sücəddinov — Ceyhun Allahverdiyev

ÜÇ ƏSRİN QƏZETİ
Kaspi
İDMAN
16 SENTYABR ŞƏNBƏ 2023
www.kaspi.az

RUSİYALI GÜLƏŞÇİLƏRİN QAYIDIŞI İLƏ GÜCLƏNƏN RƏQABƏT

Budəfəki dünya çempionatında Rusiya və Belarusdan olan güləşçilər də mübarizə aparacaqlar. Ukraynadakı müharibəyə görə bu iki ölkənin təmsilçiləri uzun müddət idi ki, beynəlxalq yarışlardan kənar qalmışdı. Sentyabrın əvvəlində Dünya Güləş Birliyi onların yarışmasına icazə verildiyini açıqlayıb. Yoxlamalardan sonra 236 idmançının müraciətindən 209-u müsbət cavablandırılıb. Ancaq onların qarşısına bəzi şərtlər qoyulub. Məsələ ondadır ki, həmin güləşçilər Rusiya və Belarusu təmsil edə bilməzlər. Onlar mundialda neytral statusda çıxış etməlidirlər. Sözügedən güləşçilərdən qızıl medal qazanan olsa, ölkələrinin himni səslənməyəcək. Bu qərardan sonra dünya çempionatının daha rəqabətli keçəcəyini deməyə əsas var. Xüsusən, həmişə ən güclülərdən olan Rusiya güləşçilərinin qayıdışı digər idmançıların işini çətinləşdirəcək. Uzun müddət böyük yarışlardan kənar qalmaları şimal qonşumuzun təmsilçilərinin hansı formada olduqlarına dair müəyyən şübhələr oyandırır. Ancaq o da bəllidir ki, həmin idmançılar tamamilə yarışsız qalmayıblar. Bəziləri isə digər ölkələrin təmsilçiləri kimi yarışıblar. Böyük ehtimalla dünya çempionatında pəhləvanlarımızın əsas rəqibləri yenidən ruslar olacaqlar.

Dünya çempionatı 2024-cü ildə Parisdə keçiriləcək Yay Olimpiya Oyunlarına lisenziya verəcək yarışlardandır. Düzdür, bundan sonra da lisenziya turnirləri çox olacaq. Amma həm prestijinə, həm lisenziya imkanlarına görə mundialın əhəmiyyəti böyükdür.

GÜLƏŞÇİLƏRİMİZ YENİ SINAQ QARŞISINDA

FAİQ TAHİROV

Sentyabrın 16-dan 24-nə qədər Serbiyanın paytaxtı Belqradda güləş üzrə dünya çempionatı keçiriləcək. Azərbaycan mundialda geniş heyətlə təmsil olunacaq. Son Avropa çempionatındakı uğurlu nəticələrin ardınca burada gözləntilər yüksəkdir.

AZƏRBAYCAN MİLLİSİ SERBİYAYA 26 GÜLƏŞÇİ İLƏ GEDİB

Ölkəmiz dünya çempionatında hər üç növdə təmsil olunacaq. Sərbəst və yunan-Roma güləşlərinin hər birində 10, qadın güləşində isə altı idmançımız medallar uğrunda mübarizə aparacaq.

Sərbəst güləş millimizin heyətində Əliabbas Rzazadə (57 kq), İntiqam Vəlizadə (51 kq), Hacı Əliyev (65 kq), Maqomed-Başir Xanıyev (70 kq), Turan Bayramov (74 kq), Orxan Abasov (79 kq), Abubakr Abakarov (86 kq), Osman Nurmaqomedov (92 kq), İslam İlyasov (97 kq) və Georgi Mesvildişvili (125 kq) yer alıblar.

Qadın güləşində ölkəmizi Mariya Stadnik (50 kq), Elnurə Məmmadova (53 kq), Jalə Əliyeva (57 kq), Alyona Kolesnik (59 kq), Elis Manolova (62 kq) və Birgül Soltanova (65 kq) təmsil edəcəklər.

Yunan-Roma güləşində isə Eldəniz Əzizli (55 kq), Nihat Məmmədli (60 kq), Murad Məmmədov (63 kq), Həsrət Cəfərov (67 kq), Ülvü Qənizadə (72 kq), Sənan Süleymanov (77 kq), Rafiq Hüseynov (82 kq), İslam Abbasov (87 kq), Maqomedxan Maqomedov (97 kq) və Beka Kandelaki (130 kq) medal qazanmağa çalışacaqlar.

ƏSAS MEDAL ÜMİDLƏRİMİZ

Dünya çempionatında sərbəst güləş yığmamızdan gözləntilər çoxdur. Komanda son Avropa çempionatında möhtəşəm performans göstərib. İki qızıl, iki gümüş və iki bürünc medalla yığma qitənin ən güclüsü olub. Dünya çempionatında komanda üzvlərinin Olimpiadaya minimum altı lisenziya qazanması gözlənilir. Komandanın baş məşqçisi Xetaq Qazyumov özü də bunu dilinə gətirib. Hacı Əliyev, Əliabbas Rzazadə, Turan Bayramov, Abubakar Abakarov, Maqomedxan Maqomedov və Georgi Meşvildişviliyə ümidlər böyükdür. Qadın güləşi yığmasının lideri yenidən Mariya Stadnikdir. Doqquzqat Avropa çempionu karyerasının sonlarına yaxınlaşır. Onun hədəfi üçüncü dəfə dünyanın ən güclüsü olduğunu sübut etməkdir. Ondan başqa, Jalə Əliyeva və Elis Manalovadan böyük gözləntilər var. Yunan-Roma güləşçilərimiz də son Avropa çempionatında uğurlu çıxış ediblər. Onlar medalların əyarına görə birinci, komanda hesabında isə ikinci olublar. Bu dəfə Eldəniz Əzizli, Nihat Məmmədli, Həsrət Cəfərov və Ülvü Qənizadə əsas medal ümidləridir.

Azərbaycan güləş ölkəsi adını çoxdan təsdiqləyib. Elə bu səbəbdən dünya çempionatında idmançılarımızdan yüksək nəticə tələbi normaldır. Üstəlik, onlar üçün ölkə xaricində və daxildə keyfiyyətli təlim-məşq toplanışları təşkil olunub. Yığmaların çalışdırıcıları da bu məqamı xüsusi qeyd ediblər.

İstənilən halda, dünya çempionatı özünəməxsus yarışdır. Burada nəticələri öncədən təxmin etmək çətindir. Fiziki və funksional hazırlıqdan əlavə psixoloji yanaşma da önəmlidir. Necə deyərlər, kim daha çox istəsə, o da məqsədinə nail olur. Pəhləvanlarımız apreldə Avropa çempionatındakı gözəl çıxışlarını bu dəfə bütün dünyaya göstərməlidirlər.

"NAR"DAN YENİ DƏRS İLİ ÜÇÜN ƏLA FÜRSƏTLƏR

"Nar" yeni tədris ilində bir neçə yararlı xidməti endirimli qiymətlərlə təklif edir. Xarici dili əyləncəli şəkildə öyrənmək istəyən şagirdlər və azyaşlı uşaqlar Lingokids, 3D formatında öyrənmək istəyən yeniyetmələr və tələbələr isə Fluentworlds tətbiqlərindən yararlana bilərlər. Bundan başqa, təhlükəsizlik baxımından övladlarının qayğısına qalan və harada olmasına nəzarət etmək istəyən valideynlər NaviMax tətbiqini yükləyə bilərlər.

Lingokids tətbiqinə abunə olmaq üçün LK yazıb 9898-ə, Fluentworlds üçün isə FW yazıb 2212-yə SMS göndərə bilərsiniz. NaviMax xidmətinin abunəliyini isə müvafiq tətbiqi yükləyib, qeydiyyatdan keçərək əldə etmək olar.

Xidmətlərin istifadəsinə başlamaq üçün uyğun tətbiqi "App Store" və "Play Store"-dan yükləmək mümkündür. Əlavə olaraq, həmin xidmətlər haqqında ətraflı məlumatı nar.az saytında tətbiqlər bölməsindən əldə edə bilərsiniz.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.